RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 274 (8867) CÜMƏ, 17 dekabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Soçi nailiyyəti Brüsseldə davam etdi

## İlham Əliyevin küncə sıxışdırdığı Ermənistanın öhdəliklərini yerinə yetirməkdən başqa yolu qalmayıb

Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyanla dekabrın 14-də Brüsseldə keçirilən birgə görüşü bir daha respublikamızın öz milli maraq və mənafelərini qətiyyətlə təmin etdiyini göstərdi. Bu görüşün gündəliyinə çıxarılan məsələlər, əldə olunan razılaşmalar İkinci Qarabağ müharibəsindəki qələbəni postmüharibə dövründə siyasi sferada uğurla davam etdirən Azərbaycanın növbəti diplomatik nailiyyətidir.

### Proseslər Azərbaycanın mənafelərinə cavab verir

Torpaqlarını işğaldan azad etdikdən sonra Azərbaycan ötən ilin noyabrında və bu ilin yanvarında imzalanmış üçtərəfli bəyanatların tam şəkildə həyata keçirilməsi, müharibənin fəsadlarının aradan qaldırılması və kommunikasiyaların açılması məsələlərində maksimal konstruktivlik nümayiş etdirib, gərəkən bütün addımları atıb. O cümlədən ölkəmiz dəfələrlə rəsmi şəkildə Azərbaycan və Ermənistan arasında sərhədlərin təxirəsalınmaz delimitasiyasının vacibliyini bəyan edib. Qarşıdurmaya son qoymaq, bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanımaq üçün rəsmi Bakı Ermənistana sülh razılaşması üzərində işə başlamağı təklif edib.

Amma ötən dövrdə Ermənistan tərəfindən Azərbaycanın konstruktiv təkliflərinə müsbət münasibət göstərilməyib. Rəsmi İrəvandan ara-sıra razılaşmaların yerinə yetirilməsi ilə bağlı fikirlər eşidilsə də, ortaya konkret fəaliyyətlə bağlı nümunə qoyulmayıb. Lakin Azərbaycan Ermənistanı üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə məcbur edir. Bu baxımdan hələ ötən ayın sonlarında keçirilən Soçi görüşü göstərmişdi ki, Ermənistanın üçtərəfli bəyanatlarla üzərinə götürdüyü hüquqi öhdəlikləri yerinə yetirməkdən başqa yolu yoxdur.

Belə ki, noyabr ayında Soçidə imzalanmış yeni bəyanatda da məhz Prezident İlham Əliyevin mövqeyi və irəli sürdüyü, Rusiya Prezidentinin də dəstəklədiyi məsələlər öz əksini tapdı. Brüssel görüşü isə bir daha proseslərin rəsmi Bakının iradəsindən kənarda inkişaf etmədiyini təsdiqlədi.

### Ermənistan ərazisindən dəmir yolunun çəkilməsi ilə bağlı öhdəliyini təsdiq edib

Konstruktiv mühitdə keçən Brüssel görüşündə münasibətlərin normallaşdırılmasına və kommunikasiyaların açılmasına dair önəmli məsələlər müzakirə olunub.

Ardı 2-ci səh.

## Brüsseldə keçirilmiş Şərq Tərəfdaşlığının VI Sammitinin yekunlarına dair birgə Bəyannamə qəbul edilib

Dekabrın 15-də Brüsseldə keçirilmiş Şərq Tərəfdaşlığının VI Sammitinin yekunlarına dair birgə Bəyannamə qəbul edilib.

AZƏRTAC xəbər verir ki, Şərq Tərəfdaşlığı ölkələri və Avropa İttifaqına üzv dövlətlərin qəbul etdiyi birgə Bəyannamədə Avropa İttifaqı Şərq Tərəfdaşlığının bütün tərəfdaş ölkələrinin müstəqilliyi, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində ərazi bütövlüyünə öz dəstəyini ifadə edir. Eyni zamanda, Şərq Tərəfdaşlığı regionunda mehriban qonşuluq münasibətlərinə, etimad quruculuğu tədbirlərinə, regional əməkdaşlığa, nəqliyyat əlaqələrinin gücləndirilməsinə dəstək ifadə olunur. Təbii ki, bu məqamlar tamamilə Azərbaycanın postmünaqişə gündəliyinə uyğundur. Bununla yanaşı, sənəddə Şərq Tərəfdaşlığı regionunda münaqişədən əziyyət çəkmiş əhaliyə yardımın vacibliyi qeyd olunur.

Bəyannamədə Azərbaycanla Avropa İttifaqı arasında yeni ikitərəfli müfəssəl sazişlə bağlı aparılan danışıqlarda əldə edilmiş tərəqqi, "Cənub qaz dəhlizi" layihəsinin başa çatması alqışlanır. Qeyd olunur ki, "Cənub qaz dəhlizi" Avropaya qaz mənbələrinin və marşrutunun şaxələndirilməsi istiqamətində mühüm addımdır. Bununla da Avropa İttifaqı Azərbaycanın dəstəyi ilə ərsəyə gəlmiş qlobal layihəyə öz dəstəyini bir daha ifadə edib.

Sənəddə həmçinin bütün ölkələrin peyvəndlərdən bərabər səviyyədə istifadə etməsinin vacibliyi qeyd olunur. Bununla da Aİ faktiki olaraq Qoşulmama Hərəkatının sədri, Azərbaycan Prezidenti İlham Əliyevin "peyvənd millətçiliyi"nə qarşı mövqeyinə dəstəyini ifadə etdi.

Azərbaycan Bəyannamənin Belarusun daxili işlərinə aid olan bəndinə qoşulmadı. Bununla Azərbaycan bir daha nümayiş etdirdi ki, ölkələrin suverenliyinə hörmət, daxili işlərinə müdaxilə edilməməsi onun üçün qırmızı xətdir və Azərbaycan insan hüquqları, humanitar məsələlərlə bağlı siyasiləşdirilmiş yanaşmanı, ikili standartları qəbul etmir, eləcə də ölkəmiz öz dostlarını heç vaxt darda qoymur.

## Prezident fərman imzalayıb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şəhid ailəsi statusu almış şəxslərin və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin sosial-məişət şəraitinin yaxşılaşdırılması haqqında fərman imzalayıb.

Bax: səh. 2

## İlham Əliyev yenidən Milli Olimpiya Komitəsinin prezidenti seçilib



Dekabrın 16-da Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) onlayn formatda VIII hesabat-seçki Baş Məclisi keçirilib.

MOK-un Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə MOK-un İcraiyyə Komitəsinin və Təftiş Komissiyasının hesabat məruzəsi dinlənilib.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yenidən Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti seçilib.

Daha sonra İlham Əliyev, Çingiz Hüseynzadə, Fərid Qayıbov, Azər Əliyev, Zemfira Meftaxetdinova, Nazim Hüseynov, Namiq Abdullayev, Fərid Mansurov, Faiq Qarayev, Könül Nurullayeva, Mariana Vasileva və Ramil Hacı MOK-un İcraiyyə Komitəsinin üzvü seçiliblər.

İclasda MOK-un Təftiş Komissiyasına üzvlərin də seçkisi baş tutub. Lyudmila Şubina, Hicran Şərifov, Balakişi Qasımov, Niyaməddin Paşayev və Yaşar Bəşirov Təftiş Komissiyasına üzv seçiliblər.

## Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin yeni tərkibdə ilk iclası olub

Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) onlayn formatda keçirilən VIII hesabat-seçki Baş Məclisindən sonra MOK İcraiyyə Komitəsinin yeni tərkibdə ilk iclası olub.

MOK-un Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azər Əliyev Milli Olimpiya Komitəsinin baş katibi, Çingiz Hüseynzadə, Fərid Qayıbov və Zemfira Meftaxetdinova MOK-un vitse-prezidentləri seçiliblər.

Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə İcraiyyə Komitəsinin yeni seçilmiş üzvlərini təbrik edərək onlara uğurlar arzulayıb.

## Media məkanı sağlamlaşacaq

### Bu sahə ilə bağlı yeni qanunun qəbulundan sonra jurnalistika daha da inkişaf edəcək

**Son illər ərzində dövlət media sahəsinin inkişafı, bu sahədə keyfiyyət dəyişikliyinin aparılması üçün çoxsaylı işlər görsə də, çatışmazlıqların, sui-istifadə hallarının olduğunu, hətta onların sayının getdikcə artdığını müşahidə edirik. Mövcud problemlər ciddi jurnalistikanın inkişafına maneələr yaradır. Hazırda Milli Məclisdə müzakirə olunan "Media haqqında" qanun layihəsinin qəbulu ilə bu kimi problemlərin öz həllini tapacağına ümid edilir. Qanun jurnalistika peşəsinin ciddi mahiyyət qazanmasına təkan verəcək. Dövlətin təminatı altına alınan media azadlığı daha da güclənəcək, jurnalistika müasir tələblər səviyyəsində daha da inkişaf edəcək.**

Ardı 5-ci səh.

## İlham Əliyevin neft-qaz siyasətinin şah əsəri



## "Şahdəniz"

**Bu gün Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi üzrə yekun investisiya qərarının imzalanmasının 8 ili tamam olur. "Şahdəniz" son onilliklərdə dünyada kəşf olunmuş ən böyük karbohidrogen yataqlarındandır, odur ki, onun mərhələlərlə işlənməsi təsadüfi deyil.**

Bax: səh. 5

## Şəhid ailəsi statusu almış şəxslərin və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin sosial-məişət şəraitinin yaxşılaşdırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sifarişi əsasında Bakı şəhəri Sabunçu rayonunun Ramana qəsəbəsində, Qaradağ rayonunun Ümid qəsəbəsində, Binəqədi rayonunun Xocasən qəsəbəsində, Abşeron, Lənkəran və Samux rayonlarında inşa edilmiş çoxmənzilli binalarda, həmçinin Bakı şəhəri Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində və Abşeron rayonunda inşası davam etdirilən, dövlət mənzil fonduna aid çoxmənzilli binalarda yerləşən mənzillərin (bu Fərmanın 4-cü hissəsi nəzərə alınmaqla) Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 146.4-cü maddəsinə əsasən özəlləşdirilməsi həmin mənzillərin satışı yolu ilə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (bundan sonra - Nazirlik) tərəfindən həyata keçirilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan mənzillərin satışı və satışdan əldə olunan vəsaitdən istifadə qaydasının layihəsini hazırlayıb bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Nazirlik:

3.1. bu Fərmanın 1-ci hissəsində qeyd edilən mənzillərin satışını bu Fərmanın 2.1-ci bəndində nəzərdə tutulan qaydaya uyğun olaraq təşkil etsin;

3.2. mənzillərin satışından əldə olunan vəsait hesabına yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış aşağıdakı şəxslərin mənzillə və ya fərdi evlə təmin edilməsi üçün tədbirlər görsün:

3.2.1. “Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 iyun tarixli 569 nömrəli Sərəncamının 1-ci hissəsində nəzərdə tutulmuş şəxslər;

3.2.2. “Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 yanvar tarixli 2449 nömrəli Sərəncamının 1-ci hissəsində nəzərdə tutulmuş şəxslər;

3.2.3. bu Fərmanın 3.2.2-ci yarımbəndində nəzərdə tutulan, 2020-ci və 2021-ci illər ərzində yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış şəxslər;

3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Müəyyən edilsin ki, bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan mənzillərin satışına aşağıdakı hallarda yol verilir:

4.1. həmin mənzillərin sayı yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış bu Fərmanın 3.2.1 - 3.2.3-cü yarımbəndlərində nəzərdə tutulan şəxslərin, eləcə də bu Fərman qüvvəyə mindiyi günədək yaşayış sahəsinə ehtiyacı olan qismində uçotda olan gözdən əlilliyi müəyyən edilmiş şəxslərin, habelə uşaqlar üçün sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş məzunlarının sayından artıq olduqda;

4.2. həmin mənzillərin Azərbaycan Respublikasının Mənzil Məcəlləsinə uyğun olaraq müəyyən edilmiş yaşayış sahəsinin ayrılma norması nəzərə alınmaqla bu Fərmanın 3.2.1 - 3.2.3-cü yarımbəndlərində nəzərdə tutulan şəxslərə verilməsi mümkün olmadıqda.

5. Yerli icra hakimiyyəti orqanları bu Fərmanın 3.2.3-cü yarımbəndində göstərilən şəxslər barədə məlumatları Nazirliyə təqdim etsinlər.

6. Bu Fərmanın 1-ci hissəsi və 3.1-ci bəndi bu Fərmanın 2.1-ci bəndində nəzərdə tutulan qayda ilə eyni gündə qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 dekabr 2021-ci il*

# Soçi nailiyyəti Brüsseldə davam etdi

*Əvvəli 1-ci səh.*



Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin minalardan təmizlənməsi məsələsi gündəliyə gətirilib, Avropa İttifaqının bu istiqamətdə Azərbaycana texniki yardım göstərməyə hazır olduğu bildirilib.

Dövlət sərhədinin delimitasiyasına gəldikdə isə, buna görə hər iki tərəf müvəqqəti işçi qrupun yaradılması ilə bağlı razılığa gəliblər. Eyni zamanda, kommunikasiya və nəqliyyat xətlərinin açılması məsələsi geniş müzakirə olunub. Ermənistan tərəfi öz ərazisindən dəmir yolu xəttinin çəkilməsi ilə bağlı üzərinə düşən öhdəliyi təsdiq edib. Bildirilib ki, Ermənistan tərəfi dəmir yolunun çəkilişinə tezliklə start verəcək. Burada gömrük və sərhəd nəzarət məsələlərinin qarşılıqlı prinsip əsasında təmin olunması barədə razılığa gəlinib.

Prezident İlham Əliyev həmin gün Brüsseldə İspaniyanın “El Pais” qəzetinə müsahibəsində bununla bağlı deyib: *“İndi Azərbaycan və Ermənistan arasında dəmir yolu əlaqəsinin açılması ilə bağlı tam razılıq var və biz Ermənistan sərhədi istiqamətində azad edilmiş ərazilərdə sökülmüş dəmir yolu xəttini tikməyə başlamışıq. Eyni zamanda, əvvəlki aylarda Ermənistan avtomobil yolunun açılmasına etiraz edirdi, lakin indi biz onları bunun qaçılmaz olduğuna inandıra bilmişik və onlar da bununla razılaşır. Beləliklə, anlaşma var. İndi biz bu dəhlizlərin, Azərbaycandan keçib Ermənistana gedən və sonra Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasına gedən Zəngəzur dəhlizinin hüquqi rejimini müzakirə edirik. Burada bizim hələ də açıq qalan müəyyən məsələlərimiz var. Lakin hesab edirəm ki, hər iki ölkə bunun baş verməli olduğunu qəbul edir və yeri gəlmişkən, keçən ay Soçidə Prezident Putinin təşəbbüsü ilə keçirilən üçtərəfli görüş zamanı biz kommunikasiyaların açılmasından açıq şəkildə bəhs edən bəyannaməni qəbul etdik. Beləliklə, bu, baş verəcək. Yeri gəlmişkən, hava məkanı artıq aktivləşib. İndi Azərbaycan Hava Yollarının Bakıdan Naxçıvana uçan təyyarələri Ermənistan hava məkanından keçməyə başlayıb”.*

### Avropa İttifaqı Azərbaycanın yaratdığı yeni reallıqları bölüşür

Aİ Şurasının prezidenti Şarl Mişelin üçtərəfli görüşün nəticəsinə dair bəyanatı da Azərbaycanın maraqlarını ehtiva edir. Bəyanatda Aİ Şurasının prezidenti tərəfindən Cənubi Qafqazda sülhün bərqərar olunması üçün Azərbaycanla Ermənistan arasında hərtərəfli sülh müqaviləsinin imzalanmasına çağırış edilib. Şarl Mişel bildirib ki, 2020-ci il 10 noyabr, 2021-ci il 11 yanvar və 26 noyabr (Soçi) görüşləri və bəyanatlarından irəli gələn öhdəliklər yerinə yetirilməlidir.

Bəyanatda ilk dəfə olaraq Aİ-nin gündəliyinə itkin düşmüş şəxslər mövzusu daxil edilib, onların taleyinə aydınlıq gətirilməsinin zəruriliyi qeyd olunub.

Şarl Mişelin bəyanatında həmçinin minatəmizləmə səylərinə, münaqişədən əziyyət çəkmiş insanlara, xüsusilə yenidənqurma fəaliyyətlərinə dəstək ifadə edilib. Habelə sərhədlərin demarkasiyası və delimitasiyası məsələsində Aİ tərəfindən məşvərətçi statusda dəstək verilə biləcəyi vurğulanıb.

Diqqətə çatdırılıb ki, Aİ Cənubi Qafqaz regionunda iqtisadi əməkdaşlığın inkişafını dəstəkləyir. Eyni zamanda, birgə iqtisadi əməkdaşlıq platformasının yaradılması təklifi irəli sürülür.

Şarl Mişel regionda kommunikasiya infrastrukturunun yaradılmasına, ölkələr arasında əlaqəni təmin edən xətlərin açılmasına və inkişaf etdirilməsinə Aİ-nin dəstəyini ifadə edib. Qurumun hətta iqtisadi və investisiya resursları vasitəsilə bu layihələri dəstəkləyəcəyi də vurğulanıb.

Bəyanatda dəmir yolu xəttinin çəkilməsi məsələsinə xüsusi toxunulub. Həmçinin dəmir yollarında gömrük və sərhəd nəzarətinin qarşılıqlılıq prinsipi əsasında təşkil olunacağı diqqətə çatdırılıb.

Bəyanatda səslənən bütün fikirlər Aİ-nın təşəbbüsü ilə keçirilmiş Brüssel görüşündə Azərbaycanın haqlı mövqeyinin bir daha təsdiqləndiyini nümayiş etdirir. Bu bəyanat Ermənistan tərəfini bir daha kapitulyasiya aktının şərtlərinə əməl etməyə vadar edir və bu ölkədə revanşist meyillərin baş qaldırma ehtimalının heç bir perspektivi olmadığını təsdiqləyir.

Aİ Şurasının prezidenti bəyanatda “Dağlıq Qarabağ münaqişəsi”, “status” kimi ifadələrdən istifadə etməyib. O cümlədən Minsk qrupunun da adı çəkilməyib. Bu da bir daha təsdiq edir ki, status məsələsi tarixin arxivinə gömülüb və Avropa İttifaqı da Azərbaycanın yaratdığı yeni reallıqları bölüşür.

Beləliklə, Soçidəki qələbə Brüsseldə də təmin olundu. Bir daha təsdiq edildi ki, Prezident İlham Əliyevin bütün danışıqlarda diplomatik küncə sıxışdırdığı Ermənistanın öhdəliklərini yerinə yetirməkdən başqa yolu qalmayıb.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# Hərbi hissələrdə yeni obyektlər istifadəyə verilib



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Ordusunda hərbi qulluqçuların sosial-məişət və xidmət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər davam etdirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti azad olunmuş ərazilərdə yeni inşa edilmiş hərbi infrastruktur obyektləri ilə tanış olub.

Müdafiə nazirinə məruzə olunub ki, modul tipli yerləşmə məntəqəsi hərbi qulluqçuların bütün zəruri ehtiyaclarını təmin etmək məqsədilə müasir avadanlıq, mebel və inventarlarla təchiz edilib. Burada silah otağı, yataqxana, yeməkxana, mətbəx, tibb məntəqəsi, ərzaq və əşya anbarları, hamam-sanitar qovşağı və fasiləsiz elektrik enerjisi ilə təmin edən generatorlar mövcuddur. Kompleks mərkəzləşdirilmiş istilik sistemi, işıq və su ilə təchiz edilib.

Nazir azad edilmiş ərazilərdə dislokasiya olunan bölmələrin döyüş qabiliyyətinin daha da artırılması ilə bağlı komandanlıq qarşısında müvafiq tapşırıqlar qoyub.



Sonra müdafiə naziri hərbi hissələrin birində yeni tikilmiş qarovul şəhərciyinin açılış mərasimində iştirak edib.

Bildirilib ki, qısa müddət ərzində müasir standartlara uyğun inşa edilən qarovul evində xidmətin yüksək səviyyədə təşkil olunması və aparılması üçün hərtərəfli şərait yaradılıb.

Binada mərkəzləşdirilmiş istilik sistemi, siqnalizasiya və yanğın əleyhinə sistemlər quraşdırılıb.

Qarovul şəhərciyinin ərazisində abadlıq və quruculuq işləri görülüb, asfalt örtüyü döşənib və yaşıllıq sahəsi salınıb. Sonda müdafiə naziri döyüş növbətçiliyinin və qoşun xidmətinin təşkili ilə bağlı tapşırıqlar verib, şəxsi heyətə xidmətdə uğurlar arzulayıb.

## Azərbaycan hər zaman Şərq Tərəfdaşlığı proqramının qarşıdurma məzmununda qurulmasının əleyhinə olub

Məlum olduğu kimi, dekabrın 15-də Brüssel şəhərində Avropa İttifaqının (Aİ) Şərq Tərəfdaşlığının VI Sammiti keçirilib və tədbirin yekununda birgə bəyannamə qəbul edilib. Bəyannamədə Azərbaycan üçün əhəmiyyət kəsb edən bir sıra məsələlər əks olunub, o cümlədən Aİ bütün tərəfdaş ölkələrin, o cümlədən Azərbaycanın ərazi bütövlüyünü onun beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində dəstəkləyib, Azərbaycan-Aİ yeni ikitərəfli saziş layihəsi üzrə davam edən danışıqlar alqışlanıb, Aİ-yə qaz təchizatı mənbələri və marşrutlarının şaxələndirilməsinə verdiyi töhfə baxımından “Cənub qaz dəhlizi” layihəsinin yekunlaşdırılması alqışlanıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva KİV-in Şərq Tərəfdaşlığı Sammitinin birgə Bəyannaməsinə Azərbaycanın qeyd-şərti ilə bağlı sualını cavablandırarkən bildirib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi deyib ki, birgə Bəyannamədə həmçinin pandemiyanın qarşısının alınması, onun nəticələrinin yumşaldılması və aradan qaldırılmasında qlobal həmrəylik, gücləndirilmiş əməkdaşlıq və çoxtərəfliliyə çağırış edilib. Bu, ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində COVID-19-la mübarizə istiqamətində fəaliyyət prioritetləri ilə uyğunluq təşkil edir.

“Onu da vurğulamaq istərdik ki, Azərbaycan hər zaman Şərq Tərəfdaşlığı proqramının qarşıdurma məzmununda qurulmasının əleyhinə olub. Bu prinsip birgə Bəyannamənin özündə də əks olunub. Burada qeyd olunur ki, Şərq Tərəfdaşlığı konstruktiv əməkdaşlığa əsaslanır və heç kimə qarşı yönəlməyib. Ölkəmizin mövqeyi ondan ibarətdir ki, Aİ üzv ölkələri və tərəfdaş ölkələr üçüncü ölkələrlə münasibətlərində müşahidə olunan çağırış və çətinlikləri Şərq Tərəfdaşlığı proqramına gətirməməlidirlər. Digər tərəfdən, proqram yalnız tərəfdaş ölkələrin Aİ ilə münasibətlərinə deyil, eyni zamanda, onların özləri arasında münasibətlərinin inkişafına xidmət etməlidir. Şərq Tərəfdaşlığı proqramı tərəfdaş ölkələrin üçüncü ölkələrlə bu proqramdan kənarda qurduğu yüksəksəviyyəli münasibətlərə xələl gətirən siyasət yürütməməlidir.

Birgə Bəyannamədə Belarusla bağlı əks olunmuş fikirlərin Azərbaycanın xarici siyasət prinsiplərinə uyğun olmaması səbəbindən Azərbaycan, birgə Bəyannaməni öz qeyd-şərti ilə qəbul edib. Yəni, Azərbaycan Belarusla bağlı 11-ci bənddəki mövqeyi bölüşmədiyini bildirib.

Azərbaycanın digər qeyd-şərti birgə Bəyannamənin texniki əlavəsində “münaqişənin təsirinə məruz qalan ərazilər”lə bağlı olub. Belə ki, sənəddə bildirilir ki, Aİ paytaxtlardan kənarda, münaqişənin təsirinə məruz qalan ərazilərdə fəaliyyət göstərən təşkilatlara dəstək verəcək. Azərbaycan isə verdiyi qeyd-şərtdə həmin ərazilərdə fəaliyyətin ərazinin məxsus olduğu ölkənin müraciəti və razılığı ilə həyata keçirilməsinin zəruriliyini vurğulayıb. Bu mövqe isə bilavasitə beynəlxalq hüquqa və dövlətlərin suveren hüquqlarına əsaslanır”, - deyə L.Abdullayeva vurğulayıb.

## Ali Radanın deputatı: “Azərbaycan və Ukrayna prezidentləri arasında sıx şəxsi münasibətlər iki ölkə əlaqələrinin inkişafına müsbət təsir edir”

“Azərbaycan və Ukrayna prezidentləri İlham Əliyev və Volodimir Zelenski arasında sıx şəxsi münasibətlər iki ölkə əlaqələrinin inkişafına müsbət təsir edir. Azərbaycan və Ukrayna bir çox sahələrdə uğurla əməkdaşlıq edir”.



Bu fikri AZƏRTAC-a məxsusi açıqlamasında Ukrayna Ali Radasının deputatı Svyatoslav Yuraş söyləyib.

Deputat hesab edir ki, iki ölkə arasında əlaqələr 2022-ci ildə də genişlənəcək, birgə regional layihələr həyata keçiriləcək.

“Ukrayna və Azərbaycanın strateji tərəfdaşlığı ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın yüksək səviyyədə olmasının göstəricisidir. Bu, o deməkdir ki, Azərbaycan ilə Ukrayna arasında bütün sahələrdə heç bir problem yoxdur. Ukrayna Azərbaycanla əlaqələrin inkişafında maraqlıdır”, - deyə Svyatoslav Yuraş əlavə edib.

Onun sözlərinə görə, iki ölkə arasında ticarət dövriyyəsinin artırılması məqsədilə mövcud olan potensialdan tam istifadə edilməsi üçün əlverişli mühit mövcuddur. Ona görə də iş adamları birgə layihələrin həyata keçirilməsində maraqlı olmalıdır.

# “İlham Əliyev sayəsində bizi işıqlı günlər gözləyir”

## Brüssel görüşünü müzakirəyə çıxaran ermənilər xilas yollarını Zəngəzur dəhlizinin açılmasında görürlər

Azərbaycanın regionda yaratdığı yeni reallıqlar, sülh və əməkdaşlıq üçün irəli sürdüyü təkliflər artıq dünya dövlətləri, beynəlxalq ictimaiyyət tərəfindən də təqdir edilir. Zəngəzur dəhlizinin açılmasına, sərhədlərin müəyyən edilməsinə dair Azərbaycanın təkliflərinə çoxsaylı ölkələr tərəfindən tam dəstək ifadə olunur. Ermənistan buna əvvəllər müqavimət göstərməyə çalışsa da, dünya dövlətlərinin yanaşması onların Azərbaycanı dəstəklədiyini, Ermənistanın tək qaldığını göstərir.

Bu fonda Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan ilə Brüssel görüşü İrəvanda da böyük reaksiyaya səbəb olub. Artıq ictimaiyyət də ölkələrinin xilas formulunun Azərbaycanla münasibətləri normallaşdırmaqda gördüklərini davamlı şəkildə bildirirlər.

Ancaq revanşist qüvvələr bu prosesin baş tutmaması üçün məkrli niyyətlərini gizlətmədən aşkarda nümayiş etdirirlər. Buna əngəl olmaq üçün nə daxili, nə də xarici dəstəyə malik olduqlarını da çox yaxşı başa düşürlər. Lakin ölkədə nüfuzunu itirən keçmiş hərbi xunta nümayəndələrinin sərsəmləmələrinə xalq heç önəm belə vermir. Ermənilər anlamağa başlayıblar ki, təhlükəsizliklərinə və iqtisadi inkişafa regionun lider ölkəsi olan Azərbaycandan başqa heç bir dövlət zəmanət verə bilməz.

Eyni zamanda kommunikasiyaların bərpasının Azərbaycan və Ermənistan arasında əlaqələrin normallaşmasına xidmət etməklə yanaşı, iki ölkə üzərindən ticarət və nəqliyyat daşımalarını əhəmiyyətli dərəcədə artıracağını da başa düşürlər. Erməni siyasi ekspert Manvel Baqdasaryan deyib ki, Soçidən sonrakı Brüssel görüşündə aparılan müzakirələr göstərir ki, kommunikasiyaların bərpası Ermənistanın xilası olacaq: “İnsanlarla söhbətləri, Brüsseldəki görüş ətrafındakı mövcud xəbərləri nəzərə alaraq deyə bilərik ki, Zəngəzur bu anda regionun geosiyasi mərkəzidir. Dəhlizin açılmasını ermənilər çox böyük səbirsizliklə gözləyirlər. Bu dəhliz sayəsində iqtisadi tərəqqinin şahidi olacağıq”.

“4rd.am” saytı yazır ki, Zəngəzur dəhlizinin açılmasının gecikməsi Ermənistanın regional geosiyasi proseslərdən izolyasiya edilməsini sürətləndirir. Müəllif məqalədə diqqəti buna yönəldir ki, bütün bu proseslər Ermənistanın sosial-iqtisadi cəhətdən daha böyük problemlər yaşaması fonunda baş verir. Ermənistan iqtisadiyyatı artıq tamamilə iflasa uğramaq üzrədir: “Rəsmi açıqlamalara görə, Ermənistanda iqtisadi fəallıq daha sürətlə azalır, ölkə sənayesində ciddi geriləmə qeydə alınır. Həmçinin pərakəndə əmtəə dövriyyəsində kəskin azalma müşahidə olunur. Ölkədə son illər ərzində enerji tariflərinin kəskin yüksəlməsi və əhalinin həyat səviyyəsinin pisləşməsi vətəndaşların sosial narazılığını da artırır. Regionlar, qlobal layihələrdən kənarda qalmağımız da prosesə birbaşa təsir edir. Ermənistan hələ də qlobal kommunikasiya layihələrindən kənarda qalmaqdadır. Qlobal meyillər durmadan dəyişir və ölkəmiz coğrafi baxımdan qlobal kommunikasiyaların tərkib hissəsi ola bildiyi halda, bu şansı da itirməkdədir. Amma əvəzində Azərbaycan prosesdən uğurla faydalanır. Sülh müqaviləsinin imzalanmasının gecikməsində Ermənistan itirən tərəfdir”.

“İnstagram” sosial şəbəkəsində çoxlu sayda izləyicisi olan səhifələr “Soçidən sonra Brüsseldə də görüş” xəbərini paylaşaraq “Zəngəzur dəhlizinin açılması Ermənistan üçün nələr vəd edir?” sualını ünvanlayıblar. Bir çox izləyici bu paylaşmanın altında rəylər yazıb. Onlardan biri - ixtisasca iqtisadçı olan Aşot Levonyan yazır: “Müqayisə aparsaq, Azərbaycan iqtisadi cəhətdən Ermənistandan çox öndədir. Azərbaycan daha da güclənir və belə vəziyyət Zəngəzur dəhlizinin açılması ilə Ermənistan iqtisadiyyatına mütləq şəkildə öz müsbət təsirini göstərəcək. İqtisadiyyat dirçələcək, insanların sosial rifahı yaxşılaşacaq. Bir çoxlarınızın qəzəbinə səbəb olsa da, deməliyəm. İlham Əliyev sayəsində bizi işıqlı günlər gözləyir. Paşinyan isə bu məsələni çox yubadır. Gecikmək ölkəmizin ziyanına işləyir”.

Bu arada İrəvanda fasiləsiz etirazlar keçirilir. Aksiyalar istər iştirakçıların sayı, istərsə də miqyası baxımından genişlənməkdədir. Paytaxtla yanaşı, Gümrü və daha bir neçə şəhərdə insanlar küçələrə çıxmağa başlayıblar. Hakimiyyətə qarşı təşkil edilən etiraz aksiyalarına polisin müdaxiləsi nəticəsində indiyədək 30-dək insan yaralanıb. Onlardan bəzilərinin vəziyyəti ağırdır.

Etiraz edənlər sırasında 44 günlük müharibədə iştirak edən hərbçilər də var. Onlar iqtidarın laqeyd münasibətindən narahatçılıqlarını ifadə ediblər. Qarabağ separatçılarının təhlükəsizlik üzrə keçmiş “müşaviri”, deputat Tiqran Abrahamyan ölkəsində müharibə iştirakçılarına diqqət göstərilməməsindən gileylənib. O, müfdafiə naziri Suren Papikyanı da konkret faktlarla ittiham edib. Bildirib ki, bir ay əvvəl 44 günlük müharibədə iştirak edərək yaralanmış vətəndaş ərizə ilə müraciət edərək ona qarşı ədalətsiz rəftarın, özbaşınalığın olmasından şikayətləndi. Mən bu məsələ ilə bağlı tələsik müdafiə nazirinə məktub göndərdim. Amma Ermənistan qanunlarına zidd olaraq məktubum hələ də cavabsız qalır. Başqa sözlə, hakimiyyətə görə insanları yalnız orduya çağırmaq olar. Amma yaralıların problemini görməzdən gəlmək lazımdır: “Müdafiə naziri nə işlə məşğuldur? Daxili siyasi mesajlar hazırlayır, həmkarlarının itkin düşənlər və ya məhbuslarla bağlı bəyanatlarını səssizcə qəbul edir? Heç olmasa unutmayın ki, müharibə bitməyib, ölkənin müdafiəsi həmin atılmış insanların çiynindədir”.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Bakıda Rusiya-Azərbaycan iqtisadi əlaqələrinin hazırkı vəziyyəti və perspektivləri mövzusunda konfrans keçirilib






Dekabrın 16-da ADA Universitetində "İnteqrasiya prosesi çərçivəsində Rusiya-Azərbaycan iqtisadi əlaqələrinin hazırkı vəziyyəti və perspektivləri" mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransda iştirak edən ADA Universitetinin rektoru Hafiz Paşayev Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin Brüsseldə keçirilən görüşdən çox şey gözlədiklərini bildirib. "Biz regionda sabitliyin təmin olunması baxımından Rusiyanın dəstəyini həmişə hiss etmişik və ümid edirəm ki, bundan sonra da görəcəyik", - deyə rektor əlavə edib.

Azərbaycan-Rusiya əlaqələrinin dərin köklərə malik olduğunu deyən Hafiz Paşayev innovasiya və startaplardan danışıb, səmərəli, müştərək işlər həyata keçirməyin, tədqiqatlar aparmağın vacibliyini vurğulayıb. Diqqətə çatdırıb ki, tədqiqatların aparılması elm və tərəqqi üçün faydalıdır. İnteqrasiya prosesi çərçivəsində Azərbaycan-Rusiya mütəxəssislərinin elm sahəsində müştərək tədqiqatlar aparması çox vacibdir.

Rusiya və Azərbaycanın çox sıx münasibətlərə malik olduğunu bildirən Rusiya Federasiyasının Baş nazirinin müavini Aleksey Overçuk inteqrasiya prosesi çərçivəsində ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişaf etdirilməsini reallıq kimi qiymətləndirərək deyib: "Azərbaycanın regionda Avropanı Asiya ilə birləşdirəcək kommunikasiyanın açılması təklifi reallaşır və bu, ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişaf perspektivləri baxımından mühüm rol oynayacaq. Ölkələrimiz arasında dərin tarixi bağlılıq qarşıya qoyulan məqsədlərə çatmağımıza imkan verəcək. Məqsədimiz iqtisadiyyatın inkişafı üzrə vahid platforma yaratmaqdır. Bu, ticarət mübadiləsi üçün faydalı olacaq".

Beynəlxalq razılaşmaları diqqətdə saxlamağın çox mühüm olduğunu qeyd edən A.Overçuk MDB-yə üzv ölkələr arasında münasibətlərin yeni müstəviyə qaldırılmasının vacibliyini vurğulayıb.

Pandemiyanın iqtisadiyyata mənfi təsirlərindən də danışan Rusiya Baş nazirinin müavini Azərbaycanın bu ağır və çətin prosesdən uğurla keçdiyini qeyd edib. MDB-yə üzv ölkələrdən beşinin bu mərhələdə vahid mexanizm kimi işlədiyini diqqətə çatdıran nazir müavini söyləyib: "İqtisadi sabitliyin qorunması baxımından maliyyə institutlarının yaradılması vacib amildir. Rusiya-Azərbaycan əlaqələri gündən-günə artan templə inkişaf edir. Azərbaycanda Rusiya biznesinin inkişaf etdirilməsində maraqlıyıq. Ölkələrimiz arasında logistika, enerji, nəqliyyat və digər sahələrdə inkişafın perspektivləri kifayət qədər böyükdür.

Rusiyanın Azərbaycana yatırdığı sərmayələrin həcminin 4,5 milyard ABŞ dollarına, Azərbaycanın bu ölkəyə qoyduğu investisiyaların həcminin isə 1,5 milyard dollara çatdığını bildirən A.Overçuk deyib: "Cənubi Qafqaz regionunda iqtisadi və nəqliyyat əlaqələrinin açılmasına dair fəal müzakirələr və işlər aparılır. Rusiyanın Azərbaycanla müzakirə ediləcəyi geniş spektrli mövzular var. İkitərəfli münasibətlər çərçivəsində də müəyyən işlər görülür. Bu istiqamətdə fəaliyyətlərimizi davam etdiririk. Bizim ortaq maraqlarımız çoxdur, üçtərəfli işçi qrupun görüşləri keçirilir. Sonuncu görüş avqustun ortalarında Moskvada keçirilib. Bütün tərəflər regionda nəqliyyat və iqtisadi əlaqələrin açılmasında maraqlıdır. Nəqliyyat marşrutlarının bərpası əmtəə dövriyyəsinin artırılması və genişləndirilməsi üçün yeni imkanlar yaradacaq".

Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov hazırda ölkələrimiz arasında əlaqələrin inkişafının intensiv dövrü olduğunu qeyd edib. Deyib ki, əsas məsələ - regionda sabitlik təmin olunub və biz artıq münasibətlərin sonrakı inkişafı barədə danışırıq.

Səfir konfransın Rusiya ilə Azərbaycan arasında münasibətlərin daha da dərinləşməsinə və iqtisadi əlaqələrin daha da inkişaf etməsinə töhfə verəcəyinə inandığını vurğulayıb.

Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayev diqqətə çatdırıb ki, Rusiya ilə Azərbaycan arasında diplomatik münasibətlər yaradılmasından keçən 30 il ərzində ikitərəfli əlaqələr daim inkişaf edib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin siyasi iradəsi, onların şəxsi dostluq münasibətləri sayəsində bu əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə çatıb. Ölkələrimiz arasında münasibətlərin çoxəsrlik mehriban qonşuluq, dostluq və əməkdaşlıq ənənələrinə əsaslandığını qeyd edən Şahin Mustafayev bildirib ki, son iki ildə dünya birliyinin üzləşdiyi yeni reallıqlar - koronavirus pandemiyası və onun nəticələri, silahlı münaqişələr, dünya bazarında enerji daşıyıcılarının qiymətlərinin sürətlə artması, mövcud logistika zəncirlərinin tarazlığının pozulması, dünya ticarət siyasətinin volatilliyi və ticarət müharibələri ticari-iqtisadi və humanitar sahələrdə beynəlxalq əməkdaşlığın ənənəvi formalarına təsir göstərir, lakin bu amillər eyni zamanda yeni imkanlar yaradır.

Ş.Mustafayev vurğulayıb ki, yeni reallıqlar çərçivəsində əsas səylər 2024-cü ilə qədər olan dövrdə Azərbaycan-Rusiya qarşılıqlı əlaqələrinin əsas istiqamətlərinin inkişafına dair planın reallaşdırılması üzərində cəmləşib. Ticarətdə mövcud maneələrin aradan qaldırılması, rəqəmsal iqtisadiyyatın və nəqliyyat infrastrukturunun inkişafı, elm tutumlu birgə istehsalatlar yaradılması, qarşılıqlı turist mübadiləsinin artırılması və başqa tədbirlər nəzərdə tutulan yeddi yol xəritəsi çərçivəsində əməkdaşlıq proqramı fəal həyata keçirilir. Diqqətə çatdırılıb ki, cari ilin yanvar-oktyabr ayları ərzində Rusiya ilə Azərbaycan arasında əmtəə dövriyyəsi nikbin olmağa əsas verir - bu sahədə təqribən 7 faiz (2,35 milyard dollar) artım qeydə alınıb. Beləliklə, Azərbaycan Cənubi Qafqazda Rusiyanın əsas ticarət tərəfdaşı kimi qalır. Qarşılıqlı investisiyaların dinamikası da nikbinlik doğurur. Rusiya Azərbaycan iqtisadiyyatına 6 milyard dollardan çox sərmayə qoyub. Öz növbəsində Rusiya iqtisadiyyatına Azərbaycan investisiyalarının həcmi 1,2 milyard dollardan çox olub. Azərbaycanda Rusiya kapitalına əsaslanan 1110 müəssisə qeydiyyata alınıb.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpası çərçivəsində də yeni imkanlar yarandığını vurğulayan Baş nazirin müavini Rusiya şirkətlərinin 13 layihə barədə öz təkliflərini təqdim etdiklərini qeyd edib. Bu layihələrdən biri - Şərqi Zəngəzur iqtisadi rayonunda "Araz vadisi iqtisadi zonası" sənaye parkında "KamAZ" müştərək servis mərkəzinin tikintisi artıq reallaşmaqdadır.

Ş.Mustafayev aqrar-sənaye kompleksi üzrə əmtəə dövriyyəsinə dair statistik məlumatlara istinadla qeyd edib ki, Azərbaycan Rusiyadan aqrar məhsulların ən iri alıcılarının ilk onluğuna daxildir. Qeyd edilib ki, tranzit nəqliyyat sahəsində ən uğurlu layihələrdən biri "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizidir. "Şimal-Qərb" beynəlxalq nəqliyyat dəhlizi uğurla fəaliyyət göstərir. Bu dəhliz vasitəsilə Bakı-Tbilisi-Qars dəmir yolu ilə Rusiyadan Türkiyəyə yüklər göndərilir. 2020-ci ildə "Şimal-Cənub" dəhlizi üzrə yükdaşımaların həcmi 15,3 faiz, "Şimal-Qərb" dəhlizi üzrə 11 faiz artıb.

Neft-qaz sahəsinin əməkdaşlığın mühüm istiqaməti olduğunu qeyd edən Ş.Mustafayev Azərbaycanda Rusiyanın çoxsaylı enerji şirkətləri, o cümlədən "Gazprom", "Transneft", "Lukoil" şirkətlərinin uğurla fəaliyyət göstərdiklərini bildirib. "Lukoil" şirkətinin Azərbaycanda "Şahdəniz" layihəsində və digər layihələrdə iştirakının genişləndirilməsinə dair saziş bağlanması nəzərdə tutulur. Qeyd etmək lazımdır ki, Bakı-Tbilisi-Ceyhan boru kəməri vasitəsilə artıq bir neçə ildir Rusiya nefti nəql olunur.

İştirakçıların diqqətinə çatdırılıb ki, iqtisadi sahə ilə bərabər, humanitar sahədə də əməkdaşlıq uğurla həyata keçirilir. Ötən illər ərzində təhsil və elm, səhiyyə, mədəniyyət, idman sahələrində fəaliyyət göstərən təşkilatlar arasında əlaqələr xeyli fəallaşıb.

Ş.Mustafayev koronavirus pandemiyasına qarşı mübarizədə Rusiyanın Azərbaycana göstərdiyi köməyi yüksək qiymətləndirib. Azərbaycan Nazirlər Kabinetinin müvafiq sərəncamına əsasən Rusiyadan 300 min doza "Sputnik V" Rusiya vaksini idxal edilməsinə icazə verilib. Bu vaksinin çox hissəsi artıq ölkəmizə gətirilib.

Azərbaycan Respublikasının Baş nazirinin müavini vurğulayıb ki, regionun gələcəyinə uzunmüddətli Ermənistan-Azərbaycan münaqişəsinin başa çatması, nəticə etibarilə Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi kontekstində nəzərdən keçirilməlidir. Ş.Mustafayev hərbi əməliyyatların dayandırılmasında və regionda vəziyyətin sabitləşməsində Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin xüsusi rolunu vurğulayıb. Azərbaycan birgə bəyanatların müddəalarının tam həcmdə reallaşmasına, habelə regionda davamlı sülhün və təhlükəsizliyin təmin edilməsinə tərəfdardır.

Baş nazirin müavini vurğulayıb ki, işğaldan azad edilmiş ərazilərin bərpası ölkəmizin strateji prioritetidir. Bu məsələlərin həlli üçün dövlət büdcəsindən külli məbləğdə vəsait ayrılıb, özəl investisiyalar cəlb edilir. Azad edilmiş ərazilərin bərpası həm də regional əməkdaşlığın inkişafı üçün böyük perspektivlər deməkdir. Bu ərazilərdə layihələrin həyata keçirilməsinə xarici investorların, o cümlədən Rusiya biznes birliyinin marağı qeyd edilib.

Ş.Mustafayev deyib ki, Cənubi Qafqaz regionunda yeni reallıqlar regiondakı bütün ölkələr arasında, o cümlədən Azərbaycan və Rusiya arasında qarşılıqlı faydalı əməkdaşlıq potensialını əhəmiyyətli dərəcədə genişləndirib, bu reallıqlar yeni məzmunlu ideya və layihələr hesabına genişlənir. Bu gün Azərbaycan region ölkələri arasında əməkdaşlığın inkişaf etdirilməsinin fəal tərəfdarıdır.

Rusiya Xalqlar Dostluğu Universitetinin Beynəlxalq münasibətlər kafedrasının müdiri İ.Andronova, ADA Universitetinin Beynəlxalq münasibətlər fakültəsinin dekanı Ə.Vəliyev, Avrasiya İqtisadi Komissiyasının İnteqrasiyanın İnkişafı Departamentinin direktor müavini V.Yanutenyok, Azərbaycan Dövlət İqtisad Universitetinin professoru E.Məmmədov, Rusiya Xarici İşlər Nazirliyinin xüsusi səlahiyyətli nümayəndəsi S.Yejov, Avrasiya İqtisadi Komissiyasının Daxili bazarın tənzimlənməsi departamentinin direktor müavini K.Elikbaev, Avrasiya İnkişaf Bankının nümayəndəsi A.Malaxov, "Cənubi Qafqaz" politoloqlar klubunun rəhbəri İ.Vəlizadə, ADA Universitetinin Beynəlxalq münasibətlər fakültəsinin dosenti L.Cumayeva və siyasi icmalçı, Azərbaycandakı Rus icmasının sədr müavini A.Lavrina mövzu ətrafında məruzələrlə çıxış ediblər.

Konfrans müzakirələrlə davam edib.

# Bu il 573 nəfər Vətən müharibəsinin iştirakçısı və şəhid ailələrinin üzvləri polis orqanlarında xidmətə qəbul olunub



Dekabrın 16-da daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun iştiraki ilə respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışı keçirilib.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sıra baxışında kütləvi informasiya vasitələrində, o cümlədən Daxili İşlər Nazirliyinin rəsmi saytında və sosial şəbəkələrdəki səhifələrində verilmiş elana uyğun olaraq nazirliyə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 337 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 90 nəfəri Vətən müharibəsinin iştirakçıları və şəhid ailələrinin üzvləri olub.

Ümumilikdə isə il ərzində daxili işlər orqanlarında xidmətə qəbul edilən gənclərdən 573 nəfəri torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmiş şəxslər və şəhid ailələrinin üzvləri olub.

Nazir V.Eyvazov xidmətə qəbul ediləcək gəncləri qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə təbrik edərək onlara polis adını və şərəfini daim uca tutmalarını, müasir informasiya texnologiyalarının sirlərinə yiyələnmələrini, vətəndaşların müraciətlərinə həssaslıqla və operativ şəkildə yanaşmalarını, onlarla ünsiyyətdə, rəftarda hər zaman yüksək mədəniyyət və təmkinlik nümayiş etdirmələrini, ədalətli, obyektiv və dürüst olmalarını, fəaliyyətlərində peşəkar həmkarlarının təcrübəsindən yararlanmalarını tövsiyə edib.

# Yaxın aylarda Bakıda Azərbaycan və Macarıstan hökumətləri arasında Birgə Komissiyanın növbəti iclası keçiriləcək



Əmək və əhalinin sosial müdafiəsi naziri, Azərbaycan Respublikası Hökuməti və Macarıstan Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan tərəfindən həmsədri Sahil Babayev ölkəmizdə səfərdə olan Macarıstanın kənd təsərrüfatı naziri İştvan Nadzın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə Macarıstanın Azərbaycandakı səfiri Viktor Szederkenyi də iştirak edib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Azərbaycanla Macarıstan arasında əlaqələrin strateji tərəfdaşlıq səviyyəsində olduğunu vurğulayan S.Babayev Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun ötən il Vətən müharibəsində qazandığı tarixi Zəfəri qeyd edib. O, Ermənistanın işğalından azad edilmiş ərazilərimizdə böyük quruculuq işləri aparıldığını, Macarıstan şirkətlərinin həmin işlərdə iştirak etməyə maraq göstərməsinin məmnunluq doğurduğunu bildirib.

Ölkəmizdə aparılan sosial-iqtisadi siyasətin nailiyyətləri barədə məlumat verən S.Babayev iki ölkə arasında digər sahələrdə olduğu kimi, kənd təsərrüfatı sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün geniş potensialın mövcud olduğunu qeyd edib. Bu gün Bakıda keçirilən Azərbaycan-Macarıstan Kənd Təsərrüfatı Biznes Forumunun iki ölkənin kənd təsərrüfatı üzrə şirkətləri arasında əməkdaşlığın inkişafında mühüm əhəmiyyətini vurğulayıb.

2005-2021-ci illərdə Bakı və Budapeştdə 10-dan artıq biznes forum, işgüzar görüş və digər tədbirlərin keçirildiyi, 2019-cu ildə Budapeştdə Azərbaycan Evinin açıldığı, ölkəmizdə xidmət, nəqliyyat, ticarət, kənd təsərrüfatı üzrə 20-dək Macarıstan şirkətinin fəaliyyət göstərdiyi bildirilib.

Azərbaycan və Macarıstan hökumətləri arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın fəaliyyətindən bəhs olunub. 2022-ci ilin fevralında Bakıda Komissiyanın 8-ci iclasının, iclas çərçivəsində Azərbaycan-Macarıstan Biznes Forumunun keçirilməsinin nəzərdə tutulduğu qeyd edilib.

İ.Nadz ölkəsinin Azərbaycanla əlaqələrinin daim inkişaf etməsinin və bu gün yüksək səviyyədə olmasının məmnunluq doğurduğunu bildirib. Əməkdaşlığın ildən-ilə genişlənməsi üçün böyük potensialın olduğunu, kənd təsərrüfatı sahəsində əlaqələrin genişlənməsində maraqlı olduqlarını vurğulayıb.

Görüşdə gələn il Kənd Təsərrüfatı və Ərzaq Sənayesi üzrə Azərbaycan-Macarıstan İşçi Qrupunun 2-ci iclasının keçirilməsinin nəzərdə tutulduğu qeyd edilib. İki ölkə arasında kənd təsərrüfatı və ərzaq məhsulları üzrə ticarət dövriyyəsinin artırılması məqsədilə ixrac potensiallı məhsullarına dair məlumat mübadiləsi aparılıb.

# Azərbaycan Prokurorluğunun beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlığı uğurla davam etdirilir

Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair qarşıya qoyulmuş hədəflərə uyğun olaraq Azərbaycan Respublikasının prokurorluq orqanları bir sıra nüfuzlu beynəlxalq təşkilatlarla faydalı əməkdaşlıq əlaqələrini uğurla davam etdirir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Misir Ərəb Respublikasının Şarm-əş-Şeyx şəhərində Birləşmiş Millətlər Təşkilatının (BMT) Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsi tərəfindən yaradılmış "Təmiz İpək Yolu Pekin Təşəbbüsü" Şəbəkəsinin ilk iclası keçirilib.

Qeyd edək ki, 2019-cu il noyabrın 14-15-də Çinin paytaxtı Pekində təşkil olunmuş II "Bir Kəmər, Bir Yol" Beynəlxalq Əməkdaşlıq Forumu zamanı irəli sürülən "Təmiz İpək Yolu Pekin Təşəbbüsü" region ölkələrində korrupsiyaya qarşı mübarizə və aktivlərin bərpası üzrə əməkdaşlıq, habelə səmərəli və şəffaf təsisatların yaradılması çağırışlarına uyğun olaraq yaradılmış layihədir.

BMT-nin nümayəndələrinin, Türkiyə, Çin, İran, Albaniya, Qırğızıstan, Monqolustan, Özbəkistan və digər dövlətlərin təmsilçilərinin qatıldıqları tədbirdə ölkəmizi Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Kamil Kamilli təmsil edib.

Bu təşəbbüsə qoşulmuş üzv ölkələr arasında əməkdaşlığın genişləndirilməsi, eləcə də beynəlxalq investisiyalar sahəsində korrupsiya hüquqpozmalarının qarşısının alınması və digər aktual mövzular ətrafında geniş müzakirələrin aparıldığı görüşdə K.Kamilli çıxış edərək ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş effektiv tədbirlər haqqında iştirakçıları məlumatlandırıb. Tədbir iştirakçılarına, həmçinin ölkəmizdə biznesin inkişafına əlverişli şəraitin yaradılması, hüquqi şəxslərin cinayət məsuliyyəti institutunun tətbiqi vəziyyəti, eləcə də digər yeniliklər barədə də ətraflı məlumat verilib.

# Azərbaycan ilə Macarıstanın aqrar sahədə əməkdaşlığının daha da inkişaf etdirilməsi perspektivləri müzakirə olunub

Dekabrın 16-da Bakıda Azərbaycan-Macarıstan Kənd Təsərrüfatı Biznes Forumu keçirilib. Forumda hər iki ölkədən aidiyyəti qurumların nümayəndələri, kənd təsərrüfatı üzrə ixtisaslaşmış şirkətlərin rəhbərləri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, biznes forumun açılış mərasimində çıxış edən kənd təsərrüfatı naziri İnam Kərimov ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən islahatlardan danışıb, kənd təsərrüfatının qeyri-neft sektorunun inkişafında mühüm rola malik olduğunu qeyd edib, aqrar sahənin inkişafının ölkəmizdə prioritet olduğunu diqqətə çatdırıb. Kənd təsərrüfatının inkişafına dövlət dəstəyindən, bu istiqamətdə aparılan islahatlardan söz açan nazir Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən aqrar sektorun bütün sahələrinə xüsusi diqqət və qayğı göstərildiyini vurğulayıb.

Bildirilib ki, Azərbaycanda kənd təsərrüfatı fəaliyyətinin vergidən azad edilməsi, kənd təsərrüfatı texnikası və damazlıq heyvan satışı bazarının liberallaşdırılması xarici şirkətlər, o cümlədən Macarıstanın aqrar sahədə ixtisaslaşmış şirkətləri üçün geniş investisiya imkanları yaradır: "Bu gün keçirilən yüksəksəviyyəli tədbir Azərbaycanla Macarıstan arasında ümumi işgüzar maraqların və yüksəksəviyyəli əlaqələrin inkişafından xəbər verir. Forum biznes sektoruna kənd təsərrüfatı sahəsində ən yaxşı təcrübələrini bölüşmək və mövcud tərəfdaşlığı daha da inkişaf etdirmək üçün mühüm şərait yaradır. Ümidvaram ki, hər iki ölkənin aqrar sahə üzrə ixtisaslaşmış şirkətlərinin nümayəndələri əməkdaşlığı daha da inkişaf etdirmək üçün ikitərəfli görüşlər keçirmək şansından maksimum yararlanacaqlar".

Nazir İnam Kərimov 2020-ci ildə Azərbaycanın öz torpaqlarını işğaldan azad etdiyini xatırladıb: "Qarşıdakı illər üçün əsas məqsədimiz işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması, onların dəyər zəncirlərinə inteqrasiyasıdır. Bu ərazilərin geniş kənd təsərrüfatı potensialı var və azad olunmuş torpaqlar Yaşıl Enerji Zonaları elan edilib. Bu ərazilərdə kənd və şəhərlərin inkişafı "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyasına əsaslanacaq. Bunu nəzərə alaraq Macarıstan şirkətləri ən yaxşı texnologiya və təcrübələrini Azərbaycanla bölüşə bilərlər".

Biznes forumda çıxış edən Macarıstan kənd təsərrüfatı naziri İştvan Nadz Azərbaycanla əlaqələrin yüksək səviyyədə olduğunu deyib, qarşılıqlı əməkdaşlığı inkişaf etdirmək üçün böyük potensialın mövcudluğunu qeyd edib. Ölkəsinin Azərbaycanla bir çox sahələrdə əməkdaşlıq etdiyini deyən nazir xüsusilə kənd təsərrüfatı sahəsində əməkdaşlığın daha da genişləndirilməsi imkanlarının mövcud olduğunu bildirib: "İqlim dəyişiklikləri, o cümlədən son 2 ildə pandemiya dünya iqtisadiyyatının bütün sahələrinə təsir göstərib. Bu baxımdan əməkdaşlığın inkişaf etdirilməsində ən böyük rollardan biri biznes qurumların üzərinə düşür və kənd təsərrüfatı üzrə ixtisaslaşmış şirkətlərin əməkdaşlığı yekun nəticədə ölkələrin aqrar sahədə əməkdaşlıq imkanlarını genişləndirir. Azərbaycanla Macarıstan qarşılıqlı ticarət dövriyyəsini artırmağa çalışmalıdır. Bu sahədə əsas məsuliyyət həm də böyük şirkətlərin üzərinə düşür. Ümidvaram ki, biznes forum çərçivəsində Macarıstan və Azərbaycandan olan iş adamlarının keçirəcəyi təkbətək görüşlər, aparacaqları fikir mübadiləsi yekunda iki ölkə arasında əməkdaşlığın daha da inkişafına müsbət təsir göstərəcək".

Daha sonra biznes forumda Azərbaycan və Macarıstan kənd təsərrüfatı potensialına həsr olunmuş təqdimatlar keçirilib.

Tədbirin açılış mərasimindən sonra Azərbaycan və Macarıstan kənd təsərrüfatı nazirlərinin rəhbərlik etdiyi nümayəndə heyətlərinin görüşü keçirilib. Görüşdə iki ölkə arasında kənd təsərrüfatı sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi perspektivləri müzakirə olunub. Azərbaycan-Macarıstan kənd təsərrüfatı məsələləri üzrə İşçi Qrupun ilk iclasının nəticələrini yüksək dəyərləndirən tərəflər növbəti iclasın yanvar ayında keçirilməsi barədə ilkin razılaşma əldə ediblər. Müzakirələrdə hər iki ölkənin aqrar təhsil, aqrar tədqiqatlar və heyvandarlıqda süni mayalanma sahəsində texnologiya mübadiləsi barədə əməkdaşlıq məsələlərinə də toxunulub.

Forum işini panel sessiyalarda davam etdirib.

# Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclası keçirilib

Dekabrın 16-da Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, komitə sədri Musa Quliyev iclası açaraq gündəliyə beş məsələnin daxil edildiyini söyləyib və məsələlər barədə məlumat verib. Diqqətə çatdırıb ki, "İşsizlikdən sığorta haqqında" qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) və "Məşğulluq haqqında" qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihələri qanunvericilik təşəbbüsü qaydasında ölkə Prezidenti tərəfindən Milli Məclisə daxil olub. Hər iki qanun layihəsi sosial müdafiəni gücləndirən xarakter daşıyır. Qanunlara edilən dəyişikliklər məşğulluğun əlçatanlığının təmin edilməsini, eyni zamanda hansısa səbəbdən işçinin öz iş yerini itirməsi ilə bağlı sığorta hadisəsi baş verərsə, sığorta ödənişlərinin şərtlərinin yumşaldılmasını nəzərdə tutur və ölkə vətəndaşlarının sosial vəziyyətini yaxşılaşdıran addımlardır. Qeyd olunub ki, "İşsizlikdən sığorta haqqında" qanunun üç maddəsinə səkkiz dəyişiklik təklif olunur. Düzəlişlərin bir qismi uyğunlaşdırma xarakteri daşıyır. Digər hissəsi isə işsizlikdən sığorta ödənişi alan şəxslərin əhatə dairəsinin genişləndirilməsi, müddətli əmək müqaviləsi üzrə tələb edilən sığorta stajının 35 aydan 30 aya qədər azaldılması, həmçinin sığorta ödənişinin alınması üçün 3 aylıq gözləmə müddətinin ləğv edilməsi ilə bağlıdır. "Məşğulluq haqqında" qanuna edilən dəyişikliklərlə bağlı bildirilib ki, sənəddə mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq payı olub, digər məşğulluğu olmayan şəxslərin peşə hazırlığı kurslarına ödənişsiz cəlb edilməsi, həmçinin peşə hazırlığına cəlb olunduqları dövrdə təqaüd almaları, haqqı ödənilən ictimai işlərə, habelə özünüməşğulluğa cəlb olunmaları kimi aktiv məşğulluq tədbirlərini təsbit edən müddəalar təklif edilir. İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini üçüncü oxunuşda təqdim edən komitə sədri bildirib ki, sənəd əmək münasibətləri zamanı işçilərin pozulmuş hüquqlarının bərpa edilməsinə, işəgötürənlərin cərimə ödəmək əvəzinə işçilərin hüquqlarını bərpa etməyə marağının yaranmasına yönəlib. Komitə üzvləri İlham Məmmədov və Vüqar Bayramov qanun layihələri ilə bağlı fikirlərini söyləyiblər, təklif olunan dəyişiklikləri məqsədəmüvafiq hesab ediblər. Sonra komitə sədri Musa Quliyev növbəti iki məsələ barədə məlumat verib. Bildirib ki, "Turizm haqqında" qanun layihəsinin birinci oxunuşda həm komitələrin birgə iclasında, həm də plenar iclasda geniş müzakirələri zamanı deputatlar sənədi dəstəkləyərək onun turizmin inkişafına xidmət edəcəyini deyiblər. Qanun ölkəmizdə turizmin dayanıqlı inkişafını təmin etmək məqsədilə turizm sahəsində dövlət idarəetməsinin əsaslarını, turizm sənayesinin tənzimlənmə mexanizmlərini, turizm ehtiyatlarından səmərəli istifadə qaydalarını və turizm sahəsinin maliyyələşdirilmə mənbələrini müəyyən edir. Sənəddə turizmlə bağlı əsas anlayışların şərhi verilib, bu sahədə dövlət idarəetməsinin əsasları göstərilib, turistlərin hüquq və vəzifələri, onların təhlükəsizliyinin və sığortalanmasının hüquqi tənzimlənməsinə dair maddələr təsbit olunub, turizm və rekreasiya zonaları ilə bağlı məsələlər öz əksini tapıb. İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) ilə əlaqədar qeyd olunub ki, təklif edilən dəyişiklik "Turizm haqqında" qanunun pozulmasından irəli gələn məsələləri həll edən inzibati hüququn yaranmasını özündə ehtiva edir. Deputatlar Əziz Ələkbərov, Rauf Əliyev, İlham Məmmədov, Jalə Əliyeva, Arzu Nağıyev, Sevinc Hüseynova qanun layihələrinə münasibət bildirərək bir sıra qeyd və təkliflərini söyləyiblər. Komitə sədri Musa Quliyev millət vəkillərinin layihələrə dair səsləndirdikləri bəzi məqamlara aydınlıq gətirib.

İclasın sonunda gündəliyə daxil edilən hər beş qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# Çingiz HÜSEYNZADƏ: "Ən böyük hədəfimiz "Paris-2024" XXXIII Yay Olimpiya Oyunlarında uğurla çıxış etməkdir"



Bu gün Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) səkkizinci hesabat-seçki Baş Məclisini keçirdik. Əslində, bu iclas ötən il keçirilməli idi. Bildiyiniz kimi, bu tədbiri hər Yay Olimpiya Oyunlarından sonra keçirirdik. Lakin pandemiya ilə əlaqədar həm Olimpiya Oyunları, həm də hesabat tədbirimiz təxirə salındı. Bugünkü tədbirdə Milli Olimpiya Komitəsinin ötən beş ildəki fəaliyyəti barədə hesabat verildi.

AZƏRTAC xəbər verir ki, bu sözləri yenidən MOK-un vitse-prezidenti seçilən Çingiz Hüseynzadə dekabrın 16-da jurnalistlərə müsahibəsində deyib.

Pandemiya ilə əlaqədar iclasın onlayn formatda təşkil olunduğunu deyən Ç.Hüseynzadə tədbirə MOK-un 112 səlahiyyətli nümayəndəsindən 105-nin qoşulduğunu deyib. Bildirib ki, hesabat məruzəsi dinlənildikdən sonra səsə qoyularaq qəbul olundu, yeni seçkilər keçirildi. Azərbaycan Prezidenti İlham Əliyev yenidən Milli Olimpiya Komitəsinin prezidenti seçildi. Həmçinin İcraiyyə Komitəsinin yeni tərkibi müəyyənləşdi. İcraiyyə Komitəsinin işinin səmərəli olması üçün mövcud say tərkibi bir qədər azaldıldı və üzvlərin sayı 17-dən 11-ə endirildi. Baş Məclisdə həm də Təftiş Komissiyasının hesabatı təqdim edildi. Həm İcraiyyə Komitəsinə, həm də Təftiş Komissiyasına yeni üzvlər seçildi.

"Baş Məclisdən sonra İcraiyyə Komitəsinin ilk iclası oldu. MOK-un Nizamnaməsinə əsasən, komitənin vitse-prezidentləri və baş katibi müəyyənləşdi. Fərid Qayıbov və Zemfira Meftaxətdinova vitse-prezident seçildilər. Mənə yenidən etimad göstərildi və vitse-prezident kimi fəaliyyətimi davam etdirəcəyəm. Azər Əliyev isə baş katib təyin olundu. İcraiyyə Komitəsinin əvvəlki üzvlərinə - Mehriban xanım Əliyevaya, Zərifə xanım Salahovaya, Rəfiqə xanım Şabanovaya və Ağacan Abiyevə böyük əməklərinə və səmərəli fəaliyyətlərinə görə təşəkkürümü bildirirəm", - deyə vitse-prezident əlavə edib.

Ən böyük hədəfin "Paris-2024" XXXIII Yay Olimpiya Oyunlarında uğurla çıxış etmək olduğunu deyən Ç.Hüseynzadə bildirib: "Yarışa üç ildən də az vaxt qalıb. Hazırlıq dövrü başlamalıdır. MOK yeni heyətlə növbəti Olimpiya Oyunlarının hazırlığına start verəcək. Eyni zamanda, Gənclər və İdman Nazirliyi ilə birgə hazırlıq proqramı tərtib olunacaq. Pandemiya bizə mane olmasa, Paris Yay Olimpiya Oyunlarına yaxşı hazırlaşa bilərik. Bütün tədbirlərdə - Beynəlxalq Olimpiya Komitəsinin, Avropa Olimpiya Komitəsinin tədbirlərində iştirak etməyi planlaşdırırıq. Mötəbər turnirlərdə - gələn il keçiriləcək İslam Həmrəyliyi Oyunlarında, 2023-cü ildə təşkil olunacaq Avropa Oyunlarında, gənclər arasında Olimpiya festivallarında və digər nüfuzlu yarışlarda fəal iştirak etməliyik. Ümid edirəm ki, yeni uğurlar qazanacağıq".

# Fövqəladə Hallar Nazirliyinin kollektivi Ulu Öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib

Dekabrın 16-da Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin (FHN) yaradılmasının 16-cı ildönümü və nazirlik işçilərinin peşə bayramı münasibətilə fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərovun rəhbərliyi ilə nazirliyin kollektivi Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib.





AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsi ehtiramla yad edilib, məzarı önünə əklil və gül dəstələri qoyulub.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üstünə tər çiçəklər düzülüb.

Daha sonra Şəhidlər xiyabanına gələn nazirliyin kollektivi Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən övladlarının xatirəsini ehtiramla anıb, məzarları üzərinə gül dəstələri qoyub.

Fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov jurnalistlərə müsahibəsində bildirib: "Bu gün FHN-in yaradılmasından 16 il ötür. Bu illər ərzində nazirlik ölkəmizdə uğurla fəaliyyət göstərib. Azərbaycan üçün ən xarakterik hadisə yanğınlardır. Elə ölkələr var ki, orada daha çox daşqınlar və digər təbii hadisələr baş verir. Meşə yanğınlarını yerdən söndürmək çox çətindir. Bunun üçün aviasiya dəstələrimiz, helikopterlərimiz və digər avadanlığımız var. Çalışırıq ki, peşəkarlığımızı daha da artıraq. Bu, qarşımızda duran ən mühüm məsələlərdən biridir".

Bu gün Azərbaycan Ordusunun dünyanın ən güclü ordularından biri olduğunu vurğulayan nazir bildirib ki, Azərbaycan işğal altındakı ərazilərini azad edən qalib dövlətdir. Azərbaycan Vətən müharibəsində tarixi Qələbə qazandı və otuz ilə yaxın davam edən işğala cəmi 44 gündə son qoydu. Ermənilərin otuzillik işğal dövründə törətdikləri vəhşiliklərin üstü indi açılır.

İşğaldan azad edilmiş ərazilərdə hazırda genişmiqyaslı quruculuq işlərinin görüldüyünü bildirən nazir bu baxımdan minatəmizləmə əməliyyatlarının sürətlə həyata keçirilməsinin vacibliyini qeyd edərək deyib: "Ermənistanın ölkəmizə verdiyi mina xəritələri tam dəqiq deyil. Minatəmizləmə əməliyyatlarının daha sürətlə aparılması üçün Prezident İlham Əliyevin tapşırığına əsasən, Fövqəladə Hallar Nazirliyində minatəmizləmə alayı yaradılıb. Bundan başqa, ən müasir avadanlıq alınıb, xüsusi itlər hazırlanır".

Fövqəladə hallar naziri müsahibəsində sahibkarlara və mülk sahiblərinə müraciət edərək deyib: "Mülk sahibləri, sahibkarlar mülkiyyətlərində olan əmlakları sığortalamalıdırlar. Ölkəmizdə bir neçə sığorta şirkəti var. Onların sığorta ilə bağlı məbləği o qədər də yüksək deyil. Hər bir vətəndaş buna əməl etsə, heç bir problemimiz olmayacaq".

# Norveç Azərbaycanla bütün sahələrdə əməkdaşlığa önəm verir

Dekabrın 16-da Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Norveç Krallığının Azərbaycandakı səfiri Erlinq Sönsberq ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Səməd Seyidov ölkələrimiz arasında əlaqələrin mövcud vəziyyətindən, müxtəlif sahələri əhatə edən əməkdaşlıqdan danışıb.

Komitə sədri Milli Məclisin fəaliyyəti barədə qonağa məlumat verib. Azərbaycan və Norveç parlamentləri arasında əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyətini bildirən Səməd Seyidov ölkəmizdə bütün sahələrdə həyata keçirilən islahatlardan, bu islahatların hüquqi bazasını təşkil edən qanunvericiliyin təkmilləşdirilməsindən bəhs edib.

Söhbət zamanı komitə sədri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Brüsselə səfəri zamanı bir sıra yüksəksəviyyəli görüşlər keçirdiyini vurğulayıb. O, Azərbaycan Prezidenti İlham Əliyevin NATO-nun Baş katibi Yens Stoltenberq və Fransa Prezidenti Emmanuel Makronla görüşlərinin əhəmiyyətindən söhbət açıb. Səməd Seyidov qeyd edib ki, Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyanla birgə görüşündə kommunikasiya və nəqliyyat xətlərinin açılması məsələsi geniş müzakirə olunub.

Komitə sədri Azərbaycanın 30 ilə yaxın müddətdə işğal altında qalmış torpaqlarını öz gücü ilə azad etdiyini xatırladıb, bunun nəticəsində regionda yeni reallığın yarandığını bildirib. O, hazırda işğaldan azad olunmuş torpaqlarımızda həyata keçirilən bərpa və quruculuq işlərindən söhbət açıb.

Azərbaycanla Ermənistan arasında delimitasiya və demarkasiya proseslərinin həyata keçirilməsi məsələsinə toxunan Səməd Seyidov qeyd edib ki, bütün kommunikasiyaların açılması üçün sülh müqaviləsinin imzalanması vacibdir. Norveçin Azərbaycandakı səfiri Erlinq Sönsberq Prezident İlham Əliyev və NATO-nun Baş katibi arasında görüşün məhsuldar keçdiyini bildirib. Brüsseldə üçtərəfli görüşün əhəmiyyətindən söz açıb. Diplomat ölkəsinin Azərbaycanla bütün sahələrdə əməkdaşlığa önəm verdiyini vurğulayıb.

Söhbət zamanı müxtəlif sahələrdə əlaqələrin genişləndirilməsi, parlamentlərarası əməkdaşlığın perspektivləri, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin büro iclası

Dekabrın 16-da Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin videokonfrans formatında 16-cı büro iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, iclas Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin həmsədrləri Marina Kalyurand və Cavanşir Feyziyevin giriş nitqləri ilə başlayıb.

Parlament Əməkdaşlıq Komitəsində Azərbaycan nümayəndə heyətinin rəhbəri, komitənin həmsədri Cavanşir Feyziyev 2018-ci ildə keçirilən 15-ci büro iclasından keçən müddət ərzində həm regionda, həm də dünyada, o cümlədən Avropada çox şeyin dəyişdiyini qeyd edib. O, Azərbaycanda parlament seçkilərinin keçirilməsi, əməkdaşlıq komitəsinin tərkibinin dəyişməsi, 44 günlük Vətən müharibəsində Azərbaycanın beynəlxalq hüquqa uyğun olaraq öz ərazilərini işğaldan azad etməsi barədə danışıb, regionda yaranan yeni hərbi-siyasi vəziyyət və əməkdaşlıq imkanları barədə məlumat verib.

Sonra Avropa İttifaqı və Azərbaycan arasında münasibətlərin indiki vəziyyətinə dair çıxışlar dinlənilib.

Azərbaycanın xarici işlər nazirinin müavini Mahmud Məmməd-Quliyev Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın hazırkı vəziyyəti, prioritetləri və həyata keçirilən layihələr barədə danışıb.

İqtisadiyyat Nazirliyinin Aparat rəhbərinin müavini Allahverdi Paşayev, Avropa Xarici Fəaliyyət Xidmətinin Şərq tərəfdaşlığı ölkələri ilə ikitərəfli münasibətlər şöbəsinin müdiri Riçard Tibbels və Avropa Komissiyasının Qonşuluq Siyasəti və Genişlənmə Danışıqları üzrə Baş direktorluğunun bölmə rəhbəri David Kullen çıxışlarında Azərbaycanın Avropa İttifaqı ilə müxtəlif proqram və layihələr çərçivəsində, xüsusən enerji sahəsindəki əməkdaşlığını qeyd ediblər, ölkəmizin etibarlı iqtisadi tərəfdaş olduğunu vurğulayıblar.

İclasda "2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatdan keçən bir il sonra regional təhlükəsizlik" mövzusunda deputatlar Erkin Qədirli, Tural Gəncəliyev, Razi Nurullayev, Elman Nəsirov və Şahin Seyidzadə, "İqtisadi və enerji əməkdaşlığı" mövzusunda deputatlar Azər Kərimli və Emin Hacıyev, "İnsan hüquqları, demokratiya və qanunun aliliyi" mövzusunda deputatlar Kamal Cəfərov və Sevil Mikayılova çıxış ediblər.

Çıxışçılar bölgədəki vəziyyətlə bağlı Avropa Parlamentinin üzvlərinə məlumat veriblər, Avropa Parlamentində Azərbaycanla bağlı səslənən fikirlərə aydınlıq gətiriblər.

İclasda postmüharibə dövründə regionda cərəyan edən hadisələr ətraflı müzakirə edilib, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə dekabrın 15-də Brüsseldə keçirilən görüşün nəticələrinin regionda sülhün və əməkdaşlığın möhkəmləndirilməsinə töhfə verəcəyinə inam ifadə olunub.

Onlayn iclasda Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsində Azərbaycan nümayəndə heyətinin üzvü olan deputatlar Nurlan Həsənov, İltizam Yusifov və digər rəsmi şəxslər də iştirak ediblər.

# Ankarada Azərbaycan-Türkiyə qardaşlığına həsr edilmiş kitabın təqdimatı olub

Ankarada Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasındakı dostluğa, Azərbaycan-Türkiyə qardaşlığına həsr edilmiş "Bərabər yürüdük biz bu yollarda" kitabının təqdimat mərasimi keçirilib.




AZƏRTAC xəbər verir ki, mərasimdə rəsmi şəxslər, azərbaycanlı və türkiyəli deputatlar, elm adamları, KİV təmsilçiləri iştirak ediblər.

Tədbirdə Türk Dövlətləri Təşkilatı Ağsaqqallar Şurasının sədri, Türkiyənin sabiq Baş naziri Binəli Yıldırım, Azərbaycan-Türkiyə Parlamentlərarası dostluq qrupunun rəhbəri, Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov, Ankara valisi Vasip Şahin, Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Şamil Ayrım, Milli Məclisin deputatı Məlahət İbrahimqızı, Ədalət və İnkişaf Partiyasından millət vəkili Öznur Çalık, Ankara Universitetinin rektoru, professor Necdet Ünüvar, Ankaranın Keçiörən rayon bələdiyyəsinin sədri Turqut Altınok, Türkiyə xarici işlər nazirinin müavini Yavuz Səlim Kıran çıxış ediblər.

Çıxışların əsas mövzusunu tarixi Qarabağ Zəfəri, Azərbaycan-Türkiyə qardaşlığı təşkil edib. Natiqlər diqqətə çatdırıblar ki, Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir!" və Ümummilli Lider Heydər Əliyevin "Türkiyə ilə Azərbaycan bir millət, iki dövlətdir!" şüarları bu gün reallıqdır. Azərbaycan Prezidenti İlham Əliyev ilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın səmimi dostluq və qardaşlıq münasibətləri, birgə qərarları, qətiyyətli addımları tarixi Zəfərin qazanılmasında mühüm amil oldu. Əminliklə bildirilib ki, bütün dünya üçün nümunə olan Azərbaycan-Türkiyə qardaşlığı regionda sülhü, sabitliyi və inkişafı təmin edəcək və qoruyacaq.

Tədbirdə müzəffər Azərbaycan Ordusunun qəhrəmanlığından və şücaətindən danışılıb.

Həmçinin təqdimatı keçirilən kitab barədə ətraflı məlumat verilib, tarixi köklərə əsaslanan Azərbaycan-Türkiyə qardaşlığının əhəmiyyəti yüksək dəyərləndirilib. Vurğulanıb ki, keçirilən tədbirin mahiyyəti, sadəcə, kitabın təqdimatı deyil, Azərbaycan-Türkiyə tarixi qardaşlığının təcəssümüdür.

Qeyd edək ki, Azərbaycan-Türkiyə Parlamentlərarası dostluq qrupunun rəhbəri, Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanovun və Ankara Universitetinin rektoru, professor Necdet Ünüvarın rəyləri əsasında hazırlanan kitabın redaktoru Türkiyə Böyük Millət Məclisinin deputatı Öznur Çalıkdır.

Nəşr Milli Məclisin deputatı Məlahət İbrahimqızının ideya müəllifliyi ilə hazırlanıb.

Kitaba prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın 2003-cü ildən bəri ikitərəfli və çoxtərəfli görüşlərindəki çıxışları, bəyanatları, eləcə də Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa şəhərində imzalanmış "Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin mətni daxil edilib.

Təqdimatda Azərbaycan Ağsaqqallar Şurasının (AAŞ) sədri, Milli Məclisin deputatı, professor Eldar Quliyevin başçılığı ilə Şuranın rəhbər şəxslərindən ibarət nümayəndə heyəti - sədr müavini, deputat Eldar İbrahimov, Şuranın İdarə Heyətinin üzvü, deputat Ağalar Vəliyev, ATƏT Parlament Assambleyasının vitse-prezidenti Azay Quliyev, həmçinin Şuranın Aparat rəhbəri Ramin Həsənli və "MediaTurk TV"nin rəhbəri, Parlament Jurnalistlər Birliyinin sədri Elşad Eyvazlı iştirak ediblər.

Nəfis tərtibat və yüksək poliqrafiya ilə çap edilən kitab iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.

Kitabın hazırlanmasında Azərbaycan Prezidentinin və Türkiyə Prezident Administrasiyasının, Azərbaycan Prezident Kitabxanasının rəsmi saytlarında və AZƏRTAC-da dərc olunan informasiyalardan istifadə edilib.

Nəşrdəki fotolar AZƏRTAC-a məxsusdur.

Sonda Xalq artisti Azərinin ifasında konsert proqramı təqdim olunub.

# Azərbaycan Ağsaqqallar Şurası ilə Türk Dövlətləri Təşkilatı Ağsaqqallar Şurası arasında əməkdaşlıq məsələləri müzakirə olunub

Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı, professor Eldar Quliyevin başçılıq etdiyi nümayəndə heyətinin Türk Dövlətləri Təşkilatı (TDT) Ağsaqqallar Şurasının sədri, Türkiyənin sabiq Baş naziri, Ədalət və İnkişaf Partiyasının Sədr müavini Binəli Yıldırımın dəvəti ilə Türkiyədə işgüzar səfəri davam edir.

AZƏRTAC xəbər verir ki, dekabrın 16-da Ədalət və İnkişaf Partiyasının mərkəzi qərargahında Türk Dövlətləri Təşkilatı Ağsaqqallar Şurasının sədri Binəli Yıldırımla Azərbaycan nümayəndə heyəti arasında görüş keçirilib.

Azərbaycan nümayəndə heyətini səmimiyyətlə salamlayan Türk Dövlətləri Təşkilatı Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım TDT-nin qarşısında duran vəzifələrdən danışıb. Sabiq Baş nazir əminliklə bildirib ki, Türk Dövlətləri Təşkilatı Ağsaqqallar Şurası türk dünyasının birliyi və həmrəyliyi istiqamətində mühüm addımlar atacaq.

Yüksək qonaqpərvərliyə və səmimi münasibətə görə nümayəndə heyəti adından minnətdarlığını ifadə edən professor Eldar Quliyev Azərbaycan Ağsaqqallar Şurasının fəaliyyətindən danışıb, Türkiyə başda olmaqla, türk dövlətlərinin müvafiq qurumları arasında qarşılıqlı faydalı əməkdaşlığının əhəmiyyətinin qurulmasını yüksək dəyərləndirib. Əminliklə bildirib ki, Binəli Yıldırımın müdrik rəhbərliyi ilə Türk Dövlətləri Təşkilatı Ağsaqqallar Şurası yaxın zamanlarda nümunəvi struktura çevriləcək.

Görüşdə Azərbaycan Ağsaqqallar Şurasının heyəti ilə bərabər, ölkəmizin Türkiyədəki səfiri Rəşad Məmmədov, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Şamil Ayrım, ATƏT Parlament Assambleyasının vitse-prezidenti Azay Quliyev, Azərbaycan Milli Məclisinin deputatı Məlahət İbrahimqızı və "MediaTürk TV"nin rəhbəri, Parlament Jurnalistlər Birliyinin sədri Elşad Eyvazlı da iştirak ediblər.

Qeyd edək ki, Azərbaycan nümayəndə heyətinin tərkibinə Ağsaqqallar Şurası sədrinin birinci müavini, deputat, akademik Əhliman Əmiraslanov, sədr müavini, deputat Eldar İbrahimov, Şuranın İdarə Heyətinin üzvü, deputat Ağalar Vəliyev və təşkilatın Aparat rəhbəri Ramin Həsənli daxildir.

ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!

# Surxay Noçuyev əfsanəsi





Cümə günüdür. Həmişəki kimi Əbdül kişi işdən çıxıb evə tələsir. Həyat yoldaşı Mehribanı da götürüb nəvələri Uğurla Fidanı görməyə yollanır. Yolboyu hər ikisi susur, danışmırlar. Lakin bir-birilərindən xəbərsiz ürəklərində Allaha yalvarırlar: "İlahi, kaş bu dəfə üzümüzə qapını Surxayın özü açaydı!..

Yenə cümə günüdür. Uğur biryaşlı bacısı Fidanı oynadır. Anası Lalə isə mətbəxdə biş-düşlə məşğuldur. Evi şən körpə səs-küyü götürüb. Amma bu səs-küyün ortasına arabir sükut çökür, ətrafa qulaq verirlər. Budur, nəhayət, qapıdan səbrsizliklə gözlədikləri tanış taqqıltı səsi gəlir. Həmişəki kimi Lalə də, Uğur da ürəklərindəki o ümidlə qapını açmağa tələsirlər:

"İlahi, kaş bu dəfə qapının arxasındakı Surxay olaydı..."

"Kaş, gələn atam olaydı..."

Qapı açılır... Övlad, ömür-gün yoldaşı, ata intizarını çəkən insanlar qucaqlaşırlar, Surxayın yoxluğunu, həsrətini, nisgilini, özləmini bir-biri ilə ovutmağa çalışırlar...

## "Şuşanı azad etməyincə heç birinizə ölməyə icazə vermirəm!.."

O gün nədənsə hava qaşqabağını daha da tökmüşdü... Topa-topa qara buludlar getdikcə sıxlaşır, yarğanlardan sürünə-sürünə gələn bəyaz duman hər yeri bürüyürdü. Ətrafa sakitlik çöksə də, arabir uzaqdan eşidilən raket, top mərmilərinin partlayış səsi bu sükutu pozur, Daşaltının üzərindən Şuşaya uzanan sıldırım qayalarda əks-səda verərək itirdi... Neçə gün idi ki, uğrunda şiddətli döyüşlər gedən Daşaltı düşməndən təmizlənmişdi. İndi də növbə Şuşanı azadlığına qovuşdurmaq idi. Elə bu həlledici tapşırığı da müvəffəqiyyətlə yerinə yetirmək üçün tabor komandiri kapitan Surxay Noçuyev döyüş yoldaşlarının qarşısında düşmənə coşan qəzəb hissi ilə elə bir çıxış edirdi ki, sanki qəzəb tanrısı yerlərə enmişdi. Noçuyev deyirdi: "Nəyin bahasına olur olsun, Şuşanı azad etməliyik!" Sonra bir-bir gözünü döyüşçü yoldaşlarının üzərində gəzdirir, səsindəki titrəkliklə söyləyirdi: "Xahiş edirəm, özünüzü qoruyun!"

Amma tez də komandir qətiyyəti ilə əlavə edirdi: "Bu bir əmrdir!.. Şuşanı azad etmədən heç birinizə ölməyə icazə vermirəm!.."

O gecə Daşaltının sıldırım qayaları ilə üzü Şuşaya doğru igid oğullarımız Zəfər cığırı açırdılar. Və bu müqəddəs yolda sanki ulduzların, ayın üzünə rübənd çəkən qara buludlar da, ətrafı göz-gözü görməyən zülmətə çevirən duman da qəhrəmanlarımızı namərd düşmənin gözündən yayındırmaq üçün sipərə çevrilmişdi...

Çıxdığımız haqq savaşının hədəf nöqtəsi Şuşaya ayaq basmağın təsvirəgəlməz qürur hissi ilə sinəsi köksünə sığmayan Surxaygil irəli şığıyır, şəhərin hər qarışı uğrunda çarpışaraq düşməni sürətlə qovurdular.

## Zəfərə cəmi yarım gün qalmışdı...

...Surxay Noçuyev döyüşə-döyüşə İsa bulağına qədər irəliləmişdi ki, birdən qarşıdakı sıx ağaclıqdan açılan avtomat güllələri sağından, solundan çovuyaraq keçməyə başladı. Dərhal yaxınlıqdakı işıq dirəyinin arxasına sığınan Surxay silahını zülmətə tərəf tuşlayaraq atəş açmağa başladı. Artıq zaman məfhumu onun üçün itmişdi və daldalanacaqda gizlənmiş düşmənlərə qarşı açıq meydanda neçə müddətdir ki təkbaşına vuruşduğunu, döyüş yoldaşlarını qoruduğunu bilmirdi. Arxa ilə əlaqə yaradaraq təcili kömək də istəmişdi və tezliklə qüvvə gələcəkdi. Elə Surxayın atdığı güllələr də hədəfdən yayınmırdı, indi qarşıdan güllələr tək-tük atılırdı. Kapitan bunları düşünə-düşünə ağaclığa tərəf daha bir-neçə güllə atıb mövqeyini dəyişmək istəyirdi ki, boynunda qəfildən dəhşətli ağrı hiss etdi... Gözləri qaraldı, ayaq üstündə durmaq istəsə də, qeyri-ixtiyari dizləri büküldü, üzüquylu ana torpağın bağrına uzandı...

Aradan çox keçmədən doğma hənir duydu, kömək yetişmişdi, daha qarşıdan da heç bir güllə atılmırdı, düşmən əbədi susdurulmuşdu...

...Yaman üşüyürdü, alışıb-yanan ürəyi isə su istəyirdi, amma getdikcə susuzluq hissi də keçirdi və daha heç nə istəmirdi. Sakitcə uzanmaq və qulaqlarında haradansa peyda olaraq laylay kimi səslənən bir körpənin qığıltısına qulaq vermək istəyirdi...

Beləcə, Vətənin daha bir mərd oğlu, 1988-ci il dekabrın 19-da Zəngilanın Məmmədbəyli kəndində anadan olan tabor komandiri kapitan Surxay Əbdül oğlu Noçuyev ömrünün baharında həyatda hər kəsdən, hər nəsnədən çox sevdiyi Vətənin qoynunda əbədiyyətə qovuşur, şəhidlik zirvəsinə ucalırdı...

2020-ci il noyabrın 8-dən 9-na keçən gecəydi, Vətən müharibəsinin Zəfərlə bitməsinə cəmi yarım gün qalmışdı...

## Ya general olacaqdı, ya da şəhid...

Vətən müharibəsinin qəhrəman döyüşçüsü, hərb sənətimizə "Surxay Noçuyev taktikası" kimi mükəmməl taktika bəxş edən kapitan Surxay Noçuyev yeniyetməliyindən hərb elminə bağlanmışdı. O, qətiyyətlə irəlilədiyi bu yolda özü üçün iki uca zirvə də müəyyənləşdirmişdi: ya general olacaqdı, ya da şəhid...

1995-2002-ci illərdə Xarici Dillər Təmayüllü Gimnaziyada, 2003-2006-cı illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil alan Surxay 2006-2010-cu illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) Quru Qoşunları fakültəsini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin Zabit ixtisas kursunu müvəffəqiyyətlə bitirmişdi. Ona leytenant hərbi rütbəsi verilmişdi. Surxay Noçuyev zabit kimi fəaliyyəti müddətində tağım komandiri, bölük komandiri, qərargah rəisi və tabor komandiri vəzifələrini icra etmiş, 2016-cı ilin aprelin 2-5-də baş verən və silahlı qüvvələrimizin qələbəsi ilə başa çatan döyüşlərdə iştirak edərək vəzifə borcunun öhdəsindən layiqincə gəlmişdi.

Surxay Noçuyev 2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti təxribatına qarşı əks-hücum əməliyyatlarına da qoşularaq işğal altında olan ərazilərimizin azad edilməsi uğrunda mübarizəyə başlamışdı. O, Cəbrayılın, Füzulinin, Zəngilanın, Qubadlının, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə tabor komandiri kimi ön xətdə qəhrəmanlıqla döyüşmüşdü. Kapitan Noçuyev bu döyüşlərdə düşmənin çoxsaylı canlı qüvvəsini və texnikasını məhv etmişdi. Qəhrəmanlıqları dillər əzbərinə çevrilən mərd igidimizin son döyüşü isə noyabr ayının 9-da Şuşa şəhərində olmuşdu. Vətən müharibəsinin sonuncu günündə qəhrəmancasına şəhid olan Surxay Noçuyev noyabrın 12-də II Fəxri xiyabanda dəfn olunmuşdu.

Surxay Noçuyevin Vətən müharibəsində nümayiş etdirdiyi qəhrəmanlıqlar yüksək qiymətləndirilərək ən ali təltiflərə layiq görülüb. Prezident İlham Əliyevin sərəncamına əsasən, Surxay Noçuyevə ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adı verilib, eyni zamanda "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub. Surxay Noçuyev hərbi xidməti dövründə III dərəcəli "Qüsursuz xidmətə görə", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı, "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medallarına da layiq görülüb.

Ailəli olan Surxaydan geriyə iki körpə balası qalıb. Biryaşlı Fidan və beşyaşlı oğlu Uğur.


















## Müharibəyə yollandığı gün dünyaya gələn qızının üzünü görə bilmədi

Taleyin qismətidir ki, Surxay Noçuyev Vətən müharibəsinə yollandığı gün adını özü verdiyi qızı Fidan dünyaya gəlir və ataya övladının üzünü görmək nəsib olmur. Surxay, sadəcə, həyat yoldaşı Lalə ilə telefonda danışarkən körpə Fidanın hıçqırıq gülüşünü eşidə bilir...

Surxayla axırıncı dəfə danışanda atasına da, anasına da deyir ki, "uşaqları yığın başınıza, onlardan muğayat olun..." Həmin vaxt bu sözləri adi hal kimi qarşılasalar da, sonradan valideynləri ürəkağrısı ilə anlayırlar ki... Bəlkə də, müharibədən geri dönməyəcəyi Surxayın ürəyinə damıbmış...

Qəhrəman şəhidin 33 yaşını onsuz qeyd edəcəyimiz bu ərəfədə atası Əbdül Noçuyevlə görüşüb Surxaylı xatirələrini bölüşdük. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun əməkdaşı Əbdül Noçuyevi, əslində, bu ilin 20 oktyabrında Zəngilanın işğaldan azad edilməsinin bir ilini qeyd etdiyimiz gün bütün Azərbaycan xalqı tanıdı, bir daha Surxay kimi igid oğul yetişdirən ataya minnətdar oldu. Zəngilana onun doğma sakinləri ilə birlikdə səfər edən Prezident İlham Əliyevin Əbdül Noçuyevlə görüşünü, şəhid atasını qucaqlayarkən kövrəlməsini, ona ürək-dirək verməsini kadrlardan izləyən hər kəs duyğulandı, Vətən uğrunda canını qurban verən Surxayın timsalında bütün şəhidlərimizin ruhuna dualar oxudu.

## Surxay haqqında keçmiş zamanda danışmaq çox ağırdır

Əbdül müəllim deyir ki, Surxaydan sonra Surxay haqqında danışacağı heç zaman ağlına gəlməzdi, bilməzdi ki, bu dərdin yükü altında beli əyilsə də, şax durmağa, məhz oğluna olan əmanət borcunu yerinə yetirmək, onun övladlarını böyüdüb boya-başa çatdırmaq üçün yaşamağa çalışacaq...

Lap kiçik yaşlarından Surxayda hərbçi nizam-intizamı var idi. Uşaq vaxtından köynəyinin bütün düymələrini sonuna kimi düymələyər, yatağını özü yığışdırar, yeriyəndə şax yeriyərdi. Hətta oxuduğu məktəbdə sinif yoldaşları onu "əsgər" deyə çağırardılar. Çox danışmazdı, qaraqabaq idi, güləndə isə sinəsindən bircə dəfə uca qəhqəhə çıxardı, vəssalam (indi Uğur atası kimi gülür)...

Xasiyyəti də sərt idi. Zabit kimi xidmətə başlayanda elə bilirdim ki, əsgərlərinə qarşı da bu cür sərtdir, sən demə, belə deyilmiş. Döyüş yoldaşlarını qardaşı, övladları kimi sevirmiş, onlara qayğı göstərirmiş. Şəxsi heyətinin bir nəfərini belə itirməmək üçün əlindən gələni edirmiş. Mən bunları bilmirdim, çünki Surxay heç zaman evdə hərbi fəaliyyəti ilə bağlı danışmazdı. Elə müharibədə göstərdiyi qəhrəmanlıqları da yalnız ölümündən sonra döyüş yoldaşlarından eşidib bildik...

## "Ata, fikir etmə, hər şey yaxşı olacaq"

Ötən ilin 27 sentyabrında, Vətən müharibəsinin başladığı gün səhər saat 6-da Surxay atasına zəng vuraraq gülə-gülə gözaydınlığı verib deyir ki, gözlədiyimiz gün gəlib çatdı. Düşmən hücum edib və bu dəfə biz onların dərsini verəcəyik, onlar azğınlıq edirlər... "Surxay, özündən muğayat ol!" söyləyən atanın səsindəki xırıltını duyanda isə oğlu əminliklə söyləyir ki, "ata, kövrəlib eləmə, bu müharibə tez bir zamanda bizim üstünlüyümüzlə bitəcək, hər şey yaxşı olacaq. Fikir etmə, yaxşı?.."

- Bir də dedi ki, uşaqlarla başını qat, darıxma. O, mənə elə təskinlik verdi ki, arxayınlaşdım. Ümumiyyətlə, müharibə dövründə hər danışığımızda Surxay bizdə elə təəssürat yaradırdı ki, sanki hansısa rahat kabinetdədir və oradan döyüşü idarə edir. Sən demə, özü od-alovun içində ola-ola bizi düşünürmüş ki, narahat olmayaq. Uşaqlığında da elə idi, heç zaman bizə əziyyət verməzdi, bütün çətinliklərin öhdəsindən təkbaşına gəlməyə çalışardı.

O, ilk dəfə deyəndə ki, hərbçi olmaq istəyirəm, söz yox ki, valideyn kimi bir az narahat olduq. Çünki biz onu tamamilə başqa sahədə görürdük. Buna baxmayaraq, Surxayı fikrindən daşındırmadıq. Yadımdan çıxmaz, hərbi liseyə qəbul olanda sevinclə üstümüzə elə qaça-qaça gəldi ki, sanki dünyanın xoşbəxtidir. Sonra orada keçirilən yaşına uyğun 40 günlük çətin sınaq müddətini də müvəffəqiyyətlə başa vurdu. Liseydə əlaçı kimi 90 manat təqaüd alırdı. Özü həmin təqaüddən çox cüzi miqdarda istifadə edib qalanını anasına verirdi ki, bu, mənim sənə hədiyyəmdir...

Surxayın arzusu general olmaq idi və həyatını itirməsəydi, bu arzusuna mütləq çatacaqdı, çünki onun göstəriciləri bunu deyirdi. Həm Naxçıvanskidə, həm də Ali Hərbi Məktəbdə hər zaman kursantlar arasında olan bölgüdə Surxay komandir olub. Zabitlik fəaliyyəti dövründə də müvəffəqiyyətləri böyük idi. Elə olurdu ki, Surxay bir ildə iki vəzifə dəyişirdi. Hansı ki ən yaxşı halda iki ildən bir vəzifə dəyişmək mümkündür. Amma Surxay 28 yaşında artıq tabor komandiri idi. Vətən müharibəsində də tabor komandiri kimi qəhrəmanlıqla vuruşub, düşməni məhv etməklə bərabər, həm də son ana qədər şəxsi heyətinin həyatını canı bahasına qorumağa çalışıb.

## Hər bir yaralanan, şəhid olan əsgərinin alnından öpüb yola salırdı

Şəhid atası İkinci Fəxri xiyabanda uyuyan qəhrəman oğlunun məzarını, adətən, tənha ziyarət edir. Belə olanda, sanki oğlunun ruhuyla daha rahat söhbətləşir, ürəyindən qaynayaraq gözlərində yaşa çevrilən acı damlaların axmasına mane olmur...

O gün də şəhid oğlunun məzarını tək ziyarət etmiş, təzəcə toxtamışdı, ki, "komandirimi, tapdım!" - deyən həyəcanlı səslər eşitdi. Hərbigeyimli bir nəfər yaxınlaşaraq, məzarın qarşısında diziüstə çöküb hönkürə-hönkürə söyləyirdi: "Komandir Noçuyev, axı biz belə danışmamışdıq. Məni hospitala göndərəndə dedin ki, Əsgər, sən sağalıb bura mənim yanıma, döyüşə qayıtmalısan. O, bir əmr kimi mənim üzərimdə qalıb. Mən qayıtmışam, axı, sən yoxsan, komandir!.."

Surxay Noçuyevin Əsgər adlı əsgəri Əbdül kişiyə danışmışdı ki, döyüşlərin birində ağır yaralanır. Onu ölmüş bilərək sanitar maşınına qoyurlar və gözləyirlər ki, komandir Noçuyev gəlib onunla halallaşaraq yola salsın: "Şüurum üstümdə olsa da, hərəkət edə bilmirdim. Komandir gəldi və elə bildi ki, yenicə keçinmişəm. Bu zaman yoldaşlarımızdan biri dedi ki, komandir, deyəsən, o, ayağını tərpədir. Bunu biləndən sonra o tapşırdı ki, məni təcili hospitala çatdırsınlar. Son dəfə isə əyilib dedi ki, yəqin eşidirsən məni, Əsgər, səni burda gözləyirik ha..."

Gəldim hospitalda ayıldım və xəbər tutdum ki, artıq komandirim Surxay Noçuyev şəhid olub..."

- Bütün yoldaşları danışırlar ki, Surxayın döyüşçülərinə məhəbbəti çox böyük idi. Hər bir yaralanan, şəhid olan əsgərini alnından öpüb yola salırdı.

Deyirlər ki, bir dəfə Füzulidə döyüş zamanı minaatan atışı nəticəsində bir əsgərimiz tamamilə torpağa qarışır. Döyüşün yenicə qurtarmasına, təhlükənin hələ sovuşmamasına baxmayaraq, axşam o özü ilə bərabər 3 nəfər döyüşçü də götürərək gedir və həmin əsgəri çıxarıb gətirir. Şəhidin bədəni tamamilə tanınmaz hala düşmüş, parçalanmış olur, sadəcə qan qarışıq torpağa bulaşmış sifəti salamat qalır. Surxay gəlib şəhid əsgərinin alnını torpaqdan təmizləyərək öpür və deyir ki, "Allah rəhmət etsin. Rahat yat, bil ki, qisasın alınacaq, torpaqlarımızı mütləq azad edəcəyik!"

## O gündən sonra bir daha Surxaydan xəbər ala bilmədik

- Hardasa, oktyabrın 2-3-də döyüşlərin şiddətli dövründə Surxay mənə zəng vurub dedi ki, ata, Beyləqanda qaldığımız evdə əşyalarımı yığmışam. İşdəki sənədlərini, şəxsi əşyalarını, telefonunu, kompüterini, printerini hara qoymuşdusa, bir-bir yerini mənə deyirdi ki, gedib yığışdırarsan. Mən o anlarda ürəyimə daman şübhələri özümdən qovaraq Surxaya dedim ki, bunları mənə niyə deyirsən, sonra özün götürərsən də... Amma qorxduğum başıma gəldi. Müharibədən sonra Beyləqana gedib Surxayın əşyalarını onsuz yığışdırmalı oldum. O ağır səhnəni təsvir etməkdə çox çətinlik çəkirəm...

- Sonuncu dəfə isə Zəngilan işğaldan azad olunan gün danışdıq, təbrik etdi məni. Məmmədbəylinin yanından keçdiklərini söylədi, dedi ki, kəndimizdən əsər-əlamət qalmayıb. Noyabrın 1-də isə həyat yoldaşı ilə danışmışdı, uşaqlarını soruşmuşdu. O gündən sonra bir daha nə Surxayın özü ilə danışa, nə də ondan xəbər ala bildik...

Artıq 10 gün keçmişdi, kiminlə danışırdıqsa, deyirdi ki, şəbəkə yoxdur, əlaqə saxlamaq olmur. Düzü, bircə təsəllimiz bu idi. Sən demə, artıq hər kəs bilirmiş ki, Surxay şəhid olub, sadəcə, mənə demirmişlər. Məndən əvvəl qardaşıma demişdilər, qohum-əqrəba da onlara yığışmışdı. Noyabrın 11-də Surxayın nəşi Bakıya gətiriləndən saat yarım əvvəl mənə xəbər verdilər...

Dəfndə iştirak edən döyüşçü yoldaşlarının danışığından bildim ki, oğlum böyük qəhrəman olub, Vətən uğrunda sona qədər döyüşərək canını belə qurban verməkdən çəkinməyib.

Füzulinin Qaraxanbəyli kəndinin azad edilməsi uğrunda gedən döyüşlərdə həyata keçirilən döyüş taktikası Surxayın adı ilə bağlıdır. Məhz həmin kənddə tətbiq olunan taktikaya "Surxay Noçuyev taktika"sı adı verilmişdi. Ümumiyyətlə, həmin taktika Füzuli uğrunda döyüşlərdə özünü təsdiq etmişdi və müharibənin sonrakı mərhələlərində də uğurla istifadə olunmuşdu. "Surxay Noçuyev taktikası"ndan hansı döyüşdə istifadə olunurdusa, orada minimum itki və yüksək qələbə olurdu...

## "Bütün şəhid valideynlərinin, övladlarının, yaxınlarının İlham Əliyev kimi böyük dayağı var"

Ən böyük təsəllimiz odur ki, bu gün Surxay kimi igid oğullarımızın qanı tökülən yerlərə biz sahibləri hakimik. Dərd onda olardı ki, onların qanı tökülən yerdə mənfur düşmən gəzərdi...

Allah qoysa, Şuşaya gedərək Surxayın şəhid olduğu yeri də ziyarət edəcəm, bu, mənim üçün bir təskinlik olar...

Artıq Prezidentimizlə birlikdə gedib doğma Zəngilanımızı görmüşəm. Orada cənab İlham Əliyevlə olan görüş hər birimizdə ömür boyu yadımızdan çıxmayacaq böyük təəssürat yaratdı. İlham Əliyev mənimlə söhbət etdi, sözlərimi diqqətlə dinlədi, sonra qəhrəman oğullarımız, şəhidlərimiz haqqında danışdı, çıxışı zamanı isə neçə dəfə tutuldu, məni də qucaqlayaraq kövrəldi... Bilirsiniz, o anlarda özümü çox arxadayaqlı hiss etdim. Bir daha əmin oldum ki, bütün şəhid valideynlərinin, övladlarının, yaxınlarının İlham Əliyev kimi böyük dayağı var...

## Bu dünyadan bir qəhrəman keçdi...

- Bilirəm ki, Surxayın ruhu uşaqlarının yanındadır. Mənim Surxaya bu dünyada bir vəfa borcum var, onu verməliyəm... Çətin də olsa, gərək ayaq üstdə duram. Axı uşaqları mənə əmanətdir. Bununla bağlı içimdə daim bir qorxu da var ki, birdən tez ölərəm, hər şey yarımçıq qalar...

Uğura deməmişik ki, atan yoxdur. Amma o özü bilir ki, atası gəlməyəcək. Biz Surxayın yoxluğunu ona demədiyimiz kimi, o da bunu bildiyini körpə qəlbində gizli tutur, bizə bildirmir. Görürsən ki, bəzən danışanda atası haqqında keçmiş zamanda danışır...

Ona demişik ki, atan göylərdə, Allahın yanındadır. Hərdən uçan təyyarələri görəndə sual verir ki, "dədə, atam da onun içindədir?"

Bütün bunları eşitməyə, yaşamağa isə ürək dözmür...

Bircə təskinliyimiz odur ki, Surxayın övladları var. Uğurun yerişi, duruşu, hərəkətləri, gülüşü sanki Surxaydır. Körpə Fidan isə Surxaydan sonra Allahın bizə göndərdiyi mələkdir...

*Ötən bu bir il müddətində şəhid atası ürəyində elə-hey çək-çevir edir, özünə min dəfələrlə sual verir, bəlkə, Surxay hərbi yox, başqa sahəni seçsəydi, hər şey başqa cür olardı? Gözləri önündə Surxayı həkim, müəllim, mühəndis və digər peşə sahibi kimi canlandırmağa çalışır. Dönə-dönə Surxayın fotolarına, videoçəkilişlərinə, səs yazılarına, əşyalarına baxır. Amma bütün fotolardan sərt baxışlı hərbçi baxır, səs yazılarından qətiyyətli döyüş əmrləri eşidilir, kadrlardan boylu-buxunlu, şax qamətli, zər paqonlu, Vətəni uğrunda canını belə qurban verməkdən çəkinməyən əfsanəvi qəhrəman Surxay Noçuyev keçir...*

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# REGİONLAR



## Azərbaycanda ağ neftlə işləyən ilk çıraq Salyandadır

Salyan şəhərindəki məscidlərin birində yaşı 150 ildən çox olan nadir çıraq saxlanılır. Yaşlı nəslin nümayəndələrinin sözlərinə görə, çıraqdan təkcə işıqlandırmada deyil, həm də istilik mənbəyi kimi istifadə edilib.

AZƏRTAC xəbər verir ki, Salyan şəhərinin mərkəzində, Mirəşrəf Ağa məscidində saxlanılan qədim çıraq bu gün də onu görənlərin marağına səbəb olur. Tarixçilər bildirirlər ki, Azərbaycanda yalnız iki belə çıraq olub.

Artıq 113 ildir ki, çıraq salyanlılar tərəfindən dəyərli xatirə kimi qorunur. Tarixçi-tədqiqatçı Sahib Həsənovun sözlərinə görə, çırağın asıldığı məscidin inşası XX əsrin əvvəllərinə, təxminən 1908-ci ilə təsadüf edir: "Çırağın özünün yaşı isə daha qədimdir, 150 ildən çoxdur. Bu çıraqdan 1941-1945-ci illər müharibəsi başlanana qədər, yəni Salyanda elektrikləşmə həyata keçirilənədək məscid tərəfindən istifadə olunub. Çırağın istifadəsi və unikallığı ondan ibarətdir ki, çıraq həm məscidi işıqlandırır, həm də istilik verir".

Məscidin tikintisi salyanlı xeyriyyəçi Hacı Tağı bəy tərəfindən həyata keçirilib. İstifadəyə verildikdən sonra həmin çıraq məscidə bağışlanıb. Qış fəslində çırağı tros vasitəsilə aşağı çəkməklə ona ağ neft əlavə edilirmiş. Onu neftlə doldurmaq üçün xüsusi mexanizm də olub. Çırağın uzunluğu 1 metr, ağırlığı 70 kiloqramdır. Təxminən 20 litrə yaxın neft tutumuna malikdir.

Təəssüf ki, son dövrlərdə qədim çırağa biganə münasibət onun şüşəsinin qırılmasına və hissələrinin sıradan çıxmasına səbəb olub. Bu barədə danışan Sahib Həsənov deyib: "Bu qədim və unikal çıraq, həqiqətən, muzey eksponatı hesab oluna bilər və bunu muzeydə qoruyub saxlamaq lazımdır. Çünki hazırda məsciddə bundan istifadə edilmir. Ona görə də muzeydə saxlanılsa, indiki və gələcək nəsillər ona baxıb ilk dəfə ağ neftlə istifadə olunan çırağı əyani şəkildə görə bilərlər".

## Ucqar kənddə yeni məktəb binası istifadəyə verilmişdir

Modul tipli məktəblərin üstünlüyü onların azməsrəfli olması, qısa müddət ərzində istənilən ərazidə quraşdırılması, asan daşınması, sinif otaqlarının sayının şagirdlərin sayına uyğun rahatlıqla azaldılıb-artırılmasındadır. Belə məktəblərin tikintisində əsasən yerli istehsal məhsullarından istifadə edilir.





Bütün bunlar nəzərə alınaraq son illər yeni inşa edilən məktəb binaları ilə yanaşı, müxtəlif bölgələrdə modul tipli məktəblərin quraşdırılmasına da üstünlük verilir. Onlardan biri də Şəmkir rayonunun Yuxarı Çaykənd tam orta məktəbi üçün quraşdırılmışdır.

Məktəbin açılış mərasimində Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Rəşad Tağıyev, Milli Məclisin deputatı Rauf Əliyev, Milli Məclis aparatının şöbə müdiri Rüstəm Mahmudov iştirak etmişlər.

Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı kəndin şagird və pedaqoji kollektivini, eləcə də kənd ictimaiyyətini təbrik edərək diqqətə çatdırmışdır ki, ucqar dağ kəndində belə bir məktəb binasının istifadəyə verilməsi dövlətin təhsilə göstərdiyi diqqət və qayğıkeşliyin nümunəsidir. Qeyd edilmişdir ki, yeni məktəb binası bütün standartlara cavab verir. Sinif otaqları əyani vasitələrlə təchiz edilmişdir. 80 şagirdlik olan məktəb binasında mərkəzləşdirilmiş istilik sistemi, müşahidə sistemi yaradılmış, həyətdə abadlıq işləri görülmüşdür.

Yeni inşa edilən məktəb binası ilə tanışlıqdan sonra AFFA-nın "Kəndlərdə idmanın inkişafı" layihəsi çərçivəsində şagirdlərə və kənd uşaqlarına 50 idman forması və top hədiyyə olunmuşdur.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

## Şəkinin içməli su və kanalizasiya şəbəkələrinin yarısı qurulub

Şəki şəhərinin içməli su təchizatının yenidən qurulması məqsədilə Azərbaycan hökuməti və Almaniya İnkişaf Bankının birgə layihəsi çərçivəsində Kiş mənbəyində sugötürücü qurğu, magistral kəmərlər və su anbarları inşa edilib.

Eyni zamanda içməli suya olan tələbatın tam ödənilməsi üçün dövlət büdcəsi hesabına Kiş çayının məcrasında 15 yeni subartezian quyusu qazılıb və quyulardan Şəki şəhərinə magistral su xətti çəkilərək şəhərə içməli suyun verilməsi təmin olunub. Ötən müddətdə Şəki şəhərində içməli su və kanalizasiya şəbəkələrinin tikintisi mərhələli şəkildə davam edib.

Cari ilin tədbirlər planına uyğun olaraq, 9 kilometr içməli su və 8,5 kilometr kanalizasiya şəbəkəsinin yenidən qurulması və 600 ünvanın yeni şəbəkələrə qoşulması nəzərdə tutulur. Hazırda 9 tikinti briqadası tərəfindən işlər aparılır və indiyədək layihənin 45 faizi yerinə yetirilib.

Ümumilikdə Şəki şəhərində inşası nəzərdə tutulan 314 kilometr su xətlərinin 230 kilometrlik, 294 kilometr kanalizasiya kollektoru və xəttinin isə 168 kilometrlik hissələri inşa edilib. Yeni tikilmiş şəbəkədən abonentlərə ev birləşməsi verilərək sayğaclar quraşdırılıb.

Şəkidə tullantı sularının təmizlənib kənarlaşdırılması üçün məhsuldarlığı sutkada 8000 kubmetr olan tullantı sutəmizləyici qurğusunun tikintisi işləri də davam edir. Şəki şəhərində icra olunan layihədən 2035-ci ilə perspektiv inkişaf nəzərə alınmaqla 80 minədək sakin faydalanacaq.

## Şirvanın sənaye mərkəzi indi də abad şəhərə çevrilir



2021-ci il başa çatmaq üzrədir. Təzə ilə sayılı qalan bu günlər hər kəs əlində olan işi tamamlamaq üçün var qüvvəsi ilə çalışır. Bu, ölkəmizin sənaye şəhərlərindən olan Şirvanda da belədir.

Şəhərdə tikinti, abadlıq-quruculuq işləri cari ildə də səngiməmişdir. Həyata keçirilən tədbirlər nəticəsində neftçilər, energetiklər, gənclər şəhəri kimi şöhrət tapmış Şirvan daha da abadlaşmışdır.

Şəhərin mərkəzində yerləşən və 8 hektar ərazisi olan Füzuli parkı son illər əvvəlki görkəmini itirmiş, yenidən qurulmasına ehtiyac yaranmışdı. Elə buna görə də bir vaxtlar şəhər sakinlərinin ən sevimli istirahət yeri olan bu məkandan əl-ayaq çəkilmişdi. Düzdür, şəhərin müxtəlif guşələrində istirahət üçün müxtəlif yerlər yaradılmışdır, ancaq onların heç biri bu parkın yerini vermirdi. Bu səbəbdən şəhər rəhbərliyi Füzuli parkının keçmiş görkəmini qaytarmaq üçün tədbirlər müəyyənləşdirmiş və tezliklə işə başlamışdır.

İndi parkda qızğın iş gedir. Artıq əraziyə 4,4 kilometr aralıda yerləşən Kür çayından su xətti çəkilmişdir. Suyun duruldulması və təmizlənməsi üçün xüsusi nasosxana və lazım olan başqa avadanlıqlar quraşdırılmışdır. Bunun sayəsində parkda yaradılan süni göl və şəlalə, əkilib boy atan ağaclar füsunkar bir təbiət mənzərəsi yaradır. Gölün hər iki sahilinə dekorasiya yaradan çay daşları düzülmüşdür. Gölün sahillərini birləşdirən dəmir konstruksiyalı körpülər salınıb. Göldə su velosipedi ilə gəzintiyə çıxmaq üçün xüsusi dayanacaqlar tikilmişdir.

Parkın birinci hissəsində "Qarabağ" və "Zəfər" xiyabanları yerləşir. "Zəfər" abidəsi Azərbaycan əsgərinin məğlubedilməz simvolunu özündə təcəssüm etdirir. Bu ərazidə 11 atraksion fəaliyyət göstərəcək. "IDEA" İctimai Birliyinin təşəbbüsü ilə yaradılan idman qurğuları kompleksi yeniyetmə və gənclərin sağlam, fiziki cəhətdən hazırlıqlı olmasına xidmət edəcək. Müxtəlif ölçülü müasir tametlər döşənmiş, yaşıllıqlar salınmış, ağaclar əkilmiş parkda kafe, çayxana və digər ictimai obyektlər də fəaliyyət göstərəcək.

Bir sözlə, park istifadəyə verildikdən sonra sakinlər asudə vaxtlarını mənalı keçirmək üçün burada əvvəlkindən yaxşı, daha gözəl bir məkanla üzləşəcəklər. Bəzi sakinlər elə indidən bura tez-tez baş çəkir, işlərin nə vaxt bitəcəyi ilə maraqlanır, tikintidə çalışanlara təşəkkürlərini bildirir, parkın hazır olan yerlərini gəzib istirahət edirlər. Burada şəhər sakini Gözəlağa Əliyev deyir ki, gəncliyim bu şəhərlə bağlı olub: "Ali təhsilli neftçi kimi burada əmək fəaliyyətinə başlamış, ailə həyatı qurub məskunlaşmışam. Müxtəlif vəzifələrdə işləmişəm. Bir neçə ildir təqaüddəyəm. İndi Azərbaycan tarixinin ən şərəfli günlərini, illərini yaşayırıq. Müzəffər Ordumuz daşnaqları torpaqlarımızdan qovdu. İndi isə Qarabağda, Şərqi Zəngəzurda misli görünməmiş quruculuq işləri həyata keçirilir, infrastruktur qurulur. Bizim Şirvan şəhəri də günbəgün abadlaşır. Füzuli parkının yenidən qurulması buna əyani nümunədir. Burada bütün işlər zövqlə görülür. Əhalinin istirahəti üçün hər şərait yaradılır. Əkilən ağaclar, gül-çiçək, yaradılan süni göl, şəlalə - saymaqla qurtarmaq olmaz. Bir azdan parkın gecələri gündüzündən geri qalmayacaq. Sağ olsun dövlətimiz!"

Şəhərdə digər abadlıq işləri də görülür. Çoxmərtəbəli evlərin ərazisində abad məhəllələrin salınması davam edir. Bu məhəllələr ərazidə yaşayan sakinlərin istirahətinə hesablanmışdır. Onların hər birində söhbətgahlar, uşaq, yeniyetmə və gənclər üçün əyləncə yerləri, idman qurğuları yaradılır. Bu gün Şirvanda 40 abad məhəllə var. Hazırda "IDEA" İctimai Birliyinin təşəbbüsü ilə şəhərdə daha 2 belə məhəllə salınır.

***Seyran CAVADOV, "Azərbaycan"***

## Tezliklə Qubadlı Tarix-Diyarşünaslıq Muzeyinin də köçkünlük həyatına son qoyulacaq









**Oktyabrın 25-i qədim yurd yerimiz Qubadlının çoxəsrlik tarixinin ən işıqlı səhifəsidir desək, səhv etmərik. 27 illik ayrılığa baxmayaraq, qubadlılılar doğma yurda qayıdacaqları günü səbirsizliklə gözləyirdilər. Nəhayət, Ali Baş Komandanın rəhbərliyi ilə ordumuz 2020-ci il oktyabrın 25-də həmin həsrətə son qoydu.**

Ötən illər ərzində qubadlılılar daha çox məskunlaşdıqları Sumqayıtda öz rayonlarının tarixini qoruyub saxlaya bilmişlər. Bu işdə əvəzsiz xidməti olan Qubadlı Tarix-Diyarşünaslıq Muzeyi rayon icra hakimiyyətinin Sumqayıtdakı inzibati binasında yerləşir, təbii ki, hələlik...

"Hazırda muzeyimizdə 700-ə yaxın eksponat var", - deyə muzeyin direktoru Vaqif Babayev bildirdi. Muzeydə rayonun işğal altında olan 93 kəndi barədə geniş məlumat toplandığını söyləyən direktor vurğuladı ki, Qubadlıya köçəcəkləri günü səbirsizliklə gözləyirlər.

Muzeyin girəcəyində respublikamızın dövlət atributları yerləşdirilib. Böyük zalda isə müxtəlif guşələr var. "Heydər Əliyev və Azərbaycan" guşəsində Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən fotoşəkillər diqqəti cəlb edir. Ümummilli Liderin Qubadlı rayonunun sakinləri ilə görüşlərindən xatirə şəkilləri muzeyin dəyərli eksponatlarıdır. Muzeydə həmçinin Qubadlı şəhidləri, rayonun ictimai həyatında rol oynamış insanları barədə məlumat toplanıb.

Digər tərəfdə 44 günlük Vətən savaşındakı Zəfərimizin qəhrəmanlıq anları sənədlərlə nümayiş etdirilir. Həmin Zəfəri bizlərə yaşadan qəhrəmanlarımızın döyüş və ömür yolları, şəxsi əşyaları, eləcə də müharibənin lentə köçürülən döyüş anları da muzeyin qiymətli sənədləri sırasındadır.




Ümumiyyətlə, muzeydə 673 eksponat qorunub saxlanılır. Mis və saxsı qablar, məişət əşyaları (cəhrə, həvə, kirkid və s.), habelə əslən Qubadlıdan olan yazıçıların, elm, mədəniyyət xadimlərinin kitabları muzeyə gələnlərin marağına səbəb olur. Burada xalq qəhrəmanı Qaçaq Nəbiyə aid guşə də fəaliyyət göstərir. Guşədə Qaçaq Nəbi və Həcərə aid əşyalar, onların qəhrəmanlıqlarını əks etdirən rəsm əsərləri nümayiş etdirilir.

Bütün bunlar imkan verir ki, muzeyə gələnlər Qubadlının tarixi ilə yaxından tanış olsunlar, rayonun kəndləri, relyefi, təbii sərvətləri, mədəniyyət ocaqları ilə təmas qura bilsinlər. Yeri gəlmişkən, qeyd edək ki, ətraf şəhər və rayonların sakinləri də vaxtaşırı muzeyə gəlir, eksponatlarla tanış olurlar. V.Babayev dedi ki, yaxın bir neçə ay ərzində Qubadlı və Sumqayıtla yanaşı, Qusar, Quba, Şabran, Siyəzən rayonlarının mədəniyyət işçiləri buranı ziyarət etmişlər. Muzeyin əməkdaşları həmçinin Sumqayıt və Abşerondakı məktəblilərin muzeyə ziyarətlərini təşkil edir, Qubadlının keçmişi barədə informasiyaları canlı olaraq gənc nəslə çatdırırlar.

"Ümumiyyətlə, bizi ən çox ziyarət edənlər məktəblilərdir. Qubadlının Sumqayıtda, ətraf rayonlarda məskunlaşan məktəbliləri vaxtaşırı muzeyə gəlir, tariximizlə tanış olurlar", - deyən V.Babayev onu da bildirdi ki, muzeyin elektron saytı fəaliyyət göstərir: "Saytda muzeydə olan eksponatlar və işğal zamanı dağıdılan abidələr barədə məlumat yerləşdirilib. Azad edilən torpaqlarda görülən işlər də saytda nümayiş etdirilir".

Bu gün Qubadlı azaddır. Ötən illərdən yadigar qalan eksponatlar tezliklə Qubadlıya qaytarılacaq və bununla muzey fəaliyyətini davam etdirərək köçkünlük həyatına son qoyacaq.

***Akif ƏLİYEV, "Azərbaycan"***

## Ağcabədidə azyaşlılara ödənişsiz tibbi xidmət göstərilib

Gənclər üçün Təhsil Mərkəzinin (GTM) Qarabağ ofisi nəzdində fəaliyyət göstərən İnklüziv Təhsil və Uşaq İnkişaf Mərkəzində Bakı şəhərindən dəvət edilmiş həkim-stomatoloqlar tərəfindən ağız boşluğu xəstəliklərinin ödənişsiz müayinəsi aksiyası həyata keçirilib.

AZƏRTAC xəbər verir ki, aksiya çərçivəsində Gənclər üçün Təhsil Mərkəzi tərəfindən Avropa İttifaqının maliyyə yardımı, UNICEF Azərbaycan, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin dəstəyi ilə Ağcabədi rayonunda icra olunan "İnteqrasiya olunmuş sosial xidmətlər modeli" layihəsi çərçivəsində fəaliyyət göstərən "İnkişaf geriliyi və əlilliyi olan uşaqlar üçün inklüziv strategiya əsaslı sosial xidmətlər mərkəzi"ndən bəhrələnən inkişaf geriliyi və əlilliyi olan 14 uşaq müayinə edilib. Eyni zamanda uşaqlara dişlərə qulluq üçün təmizləyici vasitələr də hədiyyə olunub.

## Beyləqanda 15,1 min tondan çox şəkər çuğunduru istehsal edilib

Beyləqan rayonunun fermerləri şəkər çuğunduru yığımını başa çatdırıblar.

Beyləqan Dövlət Aqrar İnkişaf Mərkəzinə istinadən AZƏRTAC xəbər verir ki, bu il 471,16 hektar sahədə şəkər çuğunduru səpini həyata keçirən torpaq mülkiyyətçiləri 15 min 175 ton məhsul əldə ediblər. Hər hektarın orta məhsuldarlığı 322,07 sentnerdir. Yığılan məhsul İmişli Şəkər Zavoduna təhvil verilir.

## Süni mayalanma mütəxəssisləri üçün təlim keçirilib

Xəbər verildiyi kimi, Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunda türkiyəli mütəxəssislər tərəfindən işğaldan azad olunmuş rayonlar üzrə "Azərbaycanda iribuynuzlu heyvanlar arasında süni mayalanma, heyvanlara qulluq və bəslənmə" mövzusunda təlim keçirilmiş və 12 nəfər yeni süni mayalama mütəxəssisi hazırlanmışdır.

Həmin mütəxəssislərin praktiki biliklərinin artırılması, əlavə təcrübənin əldə edilməsi məqsədilə Kənd Təsərrüfatı Nazirliyinin Respublika Süni Mayalanma Mərkəzində "Respublikada iribuynuzlu heyvanların süni mayalanması" mövzusunda təlim keçilib.

Təlimin əsas mövzusu və məqsədi gələcəkdə işğaldan azad edilmiş ərazilərdə biotexnologiyanın tətbiqini həyata keçirməklə heyvandarlığın inkişafına nail olmaq, yüksək peşəkar süni mayalanma mütəxəssisləri hazırlamaqdır. Təlimlər Respublika Süni Mayalanma Mərkəzinin təcrübəli mütəxəssisləri tərəfindən keçirilib.

Təlimin sonunda iştirakçılara sertifikat, süni mayalanma ləvazimatları və ilkin mərhələdə işə başlamaları üçün hədiyyə olaraq buğa toxumu və azot verilib.

## Tovuzda tut bağları salınır



Tovuzda baramaçılığa maraq çoxdur. Səbəb bu gəlirli sahəyə dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı dövlət başçısının imzaladığı sərəncamların stimul yaratmasıdır.

Baramaçılıqda ən vacib məsələlərdən biri yem bazasıdır. Bu vacib məsələyə diqqətlə yanaşma sayəsində müxtəlif kəndlərdə 40 mindən çox tut tingi əkilmişdir. Həmin ağacların çoxu bara düşmüşdür ki, bu da baramaçılığın yem təminatındakı problemi aradan qaldırmışdır.

Hazırda rayonda yeni tut bağlarının salınmasına başlanılmışdır. Qovlar şəhərində, Aşağı Mülkülü, Düz Cırdaxan və Hunanlar kəndlərində 2 min yerli tut tingi əkilir. Ting əkiləcək sahələrə əvvəlcədən aqrotexniki qulluq göstərilir. Mütəxəssislərin yaxından iştirak etdikləri əkində ən çox diqqət verilən məsələlərdən biri də ağacların su təminatıdır ki, bunun üçün də lazım olan tədbirlər görülür.

◆ Dünya gündəmi

# İran MAQATE ilə razılaşdı

## Agentlik Kərəcdəki nüvə obyektində kameralar quraşdıracaq

Beynəlxalq Atom Enerjisi Agentliyi (MAQATE) İranın Kərəcdəki nüvə obyektinə dair Tehranla razılaşmanın əldə olunduğunu təsdiqləyib. Agentliklə İran arasında adıçəkilən nüvə obyektində kameraların quraşdırılması ilə bağlı razılaşma əldə edilib.

Öz növbəsində, MAQATE-nin bəyanatına istinadən "The Wall Street Journal" qəzeti yazır ki, obyektdə kameralar tezliklə quraşdırılacaq. Bununla bağlı agentliyin bəyanatında deyilir: "Yaxın günlərdə quraşdırılacaq kameralar bu ilin yayında Kərəcdəki obyektdən çıxarılanları əvəz edəcək. Bundan əlavə, agentlik və İran zəmanətlərlə bağlı indiyədək həll olunmamış qalan məsələləri yekunda tənzimləmək məqsədi ilə işləri davam etdirəcək".

### Fikir ayrılıqları aradan qaldırılır

MAQATE-nin kameraları iyun ayında baş verən və Tehranın bu məsələdə İsraili ittiham etdiyi partlayışdan sonra obyektdən çıxarılıb. Razılaşmaya görə, İran Kərəçdəki nüvə poliqonunda kameraları quraşdırmaq üçün məhz agentliyin əməkdaşlarına imkan yaradacaq.

Tehran həmçinin kameralardakı bütün yazıların saxlanmasına razılıq verib. "Associated Press" Agentliyinin qeyd etdiyi kimi, indiyədək tərəflər arasında bu aspekt üzrə fikir ayrılığı mövcud idi.

Xatırladaq ki, 2015-ci ildə İran və "altılıq" ölkələri - BMT Təhlükəsizlik Şurasının beş daimi üzvü və Almaniya nüvə razılaşmasını imzalayıblar. Sazişə əsasən Tehran öz nüvə proqramının inkişafını sırf dinc məqsədlərlə məhdudlaşdırmalıdır. Sanksiyaların addım-addım aradan qaldırılması müqabilində uranın zənginləşdirilməsinin səviyyəsi və MAQATE müfəttişlərinin İranın nüvə obyektlərinə buraxılması da daxil olmaqla xüsusi parametrlər razılaşdırılıb.



### Trampın pozduğu saziş bərpa olunacaqmı?

ABŞ-ın sabiq prezidenti Donald Tramp 2018-ci ildə birtərəfli qaydada İranla imzalanmış nüvə sazişindən çıxmağı və Tehrana qarşı sanksiyaların tətbiqinə başlamağı qərara aldı. Bunun nəticəsində İran tədricən sövdələşmənin bəzi şərtlərinə riayət etməyəcəyini bildirdi.

Co Bayden hakimiyyətə gəldikdən sonra müəyyən şərtlər əsasında 2015-ci ildə əldə olunmuş razılaşmaya qayıtmağa hazır olduğunu bəyan etdi.

Bu ilin aprel-iyun aylarında İran və bir sıra dünya dövlətləri sazişin bərpası məqsədilə Avstriyanın paytaxtı Vyanada danışıqların altı raundunu keçiriblər. Tehranın nüvə proqramı üzrə məsləhətləşmələrin yeddinci raundu ötən ayın 29-da başlayıb.

### Tərəflər nikbindirlər

İran Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Səid Xatibzadə "Press" TV-yə bildirib ki, İranın Atom Enerjisi Təşkilatının rəhbəri, vitse-prezident Məhəmməd İslami və MAQATE-nin baş direktoru Rafael Mariano Qrossi arasında davam edən müzakirələr nəticəsində tərəqqiyə nail olunub, qarşılıqlı maraq doğuran bir sıra məsələlər üzrə fikir ayrılıqları isə azalıb.

Xatibzadə həmçinin deyib: "Mən təfərrüata varmaq istəmirəm, amma hər iki tərəfin tezliklə qarşılıqlı anlaşma əldə edəcəyini gözləyə bilərəm".

İslami isə jurnalistlərə bildirib ki, İran və MAQATE arasında əməkdaşlıq yalnız BMT-nin nüvə fəaliyyətinə nəzarət üzrə zəmanətləri və nüvə silahının yayılmaması haqqında müqavilə ilə məhdudlaşdırılacaq.

Vitse-prezident qeyd edib ki, MAQATE-nin İranın mərkəzi hissəsinin şimalında yerləşən, sentrifuqaların komponentlərinin istehsal sexi olan TESA Kərəc kompleksinə baxış keçirmək istəyi zəmanətlər haqqında razılaşmadan kənara çıxır və buna görə "qəbuledilməzdir".

O, həmçinin vurğulayıb ki, BMT-nin nüvə təhlükəsizliyi xidməti 2015-ci ilin nüvə razılaşmasına uyğun olaraq Kərəc obyektinə giriş əldə etməyə çalışarsa, bu halda bütün digər tərəflər öz öhdəliklərini yerinə yetirmək üçün addımlar atmalıdırlar.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

---

# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

***qəzeti 2022-ci il üçün abunə yazılışı kampaniyasına başlayır!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

---

# Son sutkada Azərbaycanda COVID-19 infeksiyasına 984 yoluxma faktı qeydə alınıb

Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına son sutkada 984 yoluxma faktı qeydə alınıb, 1748 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 12 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 608 min 60 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 582 min 243 nəfər müalicə olunaraq sağalıb, 8 min 149 nəfər vəfat edib. Aktiv xəstə sayı 17 min 668 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 12 min 440, bu günə qədər isə ümumilikdə 5 milyon 718 min 629 test icra olunub.







# Azərbaycanda COVID-19 əleyhinə 30 min dozadan çox peyvənd vurulub

Dekabrın 16-da Azərbaycanda 30 min 303 nəfər yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə vaksinasiya olunub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, gün ərzində birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 3 min 335, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 4 min 126 nəfər, "buster" doza ilə peyvənd olunanların sayı isə 22 min 842 nəfər təşkil edib.

Azərbaycanda bu günə qədər vurulan vaksinlərin ümumi sayı 10 milyon 990 min 538, birinci mərhələ üzrə peyvənd olunanların ümumi sayı 5 milyon 131 min 789, ikinci mərhələ üzrə vaksinasiya edilənlərin sayı 4 milyon 630 min 793 nəfər, "buster" doza ilə peyvənd olunanların sayı 1 milyon 227 min 956 nəfər təşkil edir.

---

## Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi COVID-19 xəstəliyinin virusunu müəyyənləşdirə bilən laboratoriya testlərinin aparılması xidmətlərinin satın alınması məqsədilə təkliflər sorğusu elan edir

Təkliflər sorğusu prosedurunda iştirak etmək üçün bu sahədə ixtisaslaşmış potensial malgöndərənlər (podratçılar) dəvət olunurlar. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Sorğuda iştirak etmək istəyən malgöndərənlər (podratçılar) LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini tender komissiyasına təqdim edə bilərlər.

İştirak haqqı: 100,00 (bir yüz) AZN

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba ödəməlidirlər:

**Təşkilatın adı:**
**Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi**
**VÖEN: 1603326271**
**Bank rekvizitləri:**
**"Kapital Bank" ASC-nin Mərkəzi filialı**
**H/h: AZ16AIIB38060029440419716102**
**VÖEN: 9900003611**
**Kod: 200026**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. AIIBAZ2X**

Təkliflər sorğusu prosedurunda iştirak etmək üçün ödənilən iştirak haqqı heç bir halda geri qaytarılmır.

Sorğuda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *sorğuda iştirak etmək üçün yazılı müraciət;*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adını, hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 40 bank günü güvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən azı 30 bank günü çox olmalıdır);*
- *iddiaçıların son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında arayış;*
- *iddiaçının mikro, kiçik və orta sahibkarlıq subyektlərinin meyarlarına uyğun olması.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri və tender təklifi ilə bank təminatı sənədlərini 10 yanvar 2022-ci il saat 11:00-dək təqdim etməlidirlər. İddiaçıların təklifləri 11 yanvar 2022-ci il saat 11:00-da Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyində (Ünvan: AZ1069, Bakı şəhəri, Mustafa Kamal Atatürk pr., 134) açılacaqdır.

Tel: (012) 404 04 01, faks: (012) 404 04 03

***Tender komissiyası***

---

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti struktur idarələrinə tələb olunan oksigen qazın alınması xidmətlərinin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər.

Müraciət üçün son müddət 23 dekabr 2021-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində və 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı şəhəri, Neftçilər prospekti 2.

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1176.

***Tender komissiyası***

---

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti struktur idarələrinə illik tələb olunan maye qazın alınması və balonların təmiri xidmətlərinin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər.

Müraciət üçün son müddət 22 dekabr 2021-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində və 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı şəhəri, Neftçilər prospekti 2.

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1176.

***Tender komissiyası***

---

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən "Maşın və avadanlıqlar" xərc maddəsi üzrə bir sıra malların satın alınması məqsədilə 02.11.2021-ci ildə keçirilmiş açıq tender prosedurunun nəticəsinə əsasən, **"Simplex" QSC** qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

---

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Nərminə Əsgərovaya əzizi

**PÜRÜZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (Ombudsman) Səbinə Əliyeva bəstəkar, Əməkdar incəsənət xadimi Ruhəngiz Qasımovaya həyat yoldaşı

**VASİF SÜLEYMANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin kollektivi uzun müddət nazirliyin əməkdaşı olmuş

**LALƏZAR ƏLİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Akademik Mehdi Mehdizadə (keçmiş Maksim Qorki) adına Cəbrayıl şəhər tam orta məktəbin 1980-ci il buraxılış 10a sinfinin məzunları sinif yoldaşları Ceyhun Cəfərova qardaşı

**ASİF TOFİQ OĞLU CƏFƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Naxçıvan şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidova atası

**MİRSALEH SEYİDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail: secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5686
Sifariş 2624
Qiyməti 40 qəpik